# Sahə 1 Külək Elektrik Stansiyası Layihəsi
# Abşeron rayonu
# Azərbaycan

## ƏMSSTQ: Hissə 3 –

## Ekoloji və Sosial İdarəetmə və Monitorinq üzrə Çərçivə sənədi

Sifarişçi:

Aprel 2022-ci il, V3

# SƏNƏD HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| LAYİHƏNİN ADI | Sahə 1 Külək Elektrik Stansiyası Layihəsi, Abşeron rayonu, Azərbaycan |
| 5CS LAYİHƏ NÖMRƏSİ | 1305/001/088 |
| SƏNƏDİN NÖMRƏSİ | Ekoloji və Sosial İdarəetmə və Monitorinq üzrə Çərçivə sənədi – Hissə 3 |
| SİFARİŞÇİ | ACWA Power |
| 5CS ŞİRKƏTİNİN LAYİHƏ MENECERİ | Rim Cabr |
| 5CS ŞİRKƏTİNİN LAYİHƏ DİREKTORU | Ken Veyd |

# SƏNƏDİN DÖVRİYYƏSİNƏ NƏZARƏT

| VERSİYA | TARİX | TƏSVİRİ | MÜƏLLİF | YOXLAYAN ŞƏXS | TƏSDİQLƏYƏN ŞƏXS |
|---|---|---|---|---|---|
| 1.0 | 29 iyul 2021 | ƏMSSTQ hesabatının layihə versiyası | MKB/ RMJ | KRW | - |
| 2.0 | 06 dekabr 2021 | ƏMSSTQ: Hissə 3 | RMJ | MKB | KRW |
| 3.0 | 22 aprel 2022 | Düzəliş edilmiş ƏMSSTQ: Hissə 3 | RMJ | MKB | KRW |

| | |
|---|---|
| 1 | Maliyyə kapitalı |
| 2 | Sosial kapital |
| 3 | Təbiət kapitalı |
| 4 | İstehsal edilmiş kapital |
| 5 | İnsan kapitalı |

Yerindən, icra üsulundan və ya funksiyasından asılı olmayaraq, bütün təşkilatlar öz məhsul və xidmətlərini uzun müddət təmin edə bilmək üçün *Dayanıqlı İnkişafın 5 Kapitalından* asılıdır.

"5 Capitals" şirkətinin bütün nailiyyətləri dayanıqlığa söykənir. Harada çalışmağımızdan asılı olmayaraq, müştərilərimizə bu kapital aktivlərinin ehtiyatlarını qorumaq və artırmaq üçün vasitələr təqdim etməyə çalışırıq.

## Məsuliyyətdən imtina bildirişi

"5 Capitals" hər hansı digər tərəfin bu sənədə əsaslanması və ya bu sənədin hər hansı digər məqsədlə istifadə edilməsi ilə bağlı yaranan nəticələrə görə məsuliyyət daşımır.
Bu sənəddə məxfi məlumatlar və əqli mülkiyyətə əsaslanan məzmun var. Bu sənəd onu sifariş verən tərəfin razılığı olmadan digər tərəflərə göstərilməməlidir.

Bu sənəd onu sifariş edən tərəf üçün buraxılır və xüsusi olaraq yuxarıda müəyyənləşdirilmiş layihə ilə bağlı məqsədlər üçün hazırlanıb. Hər hansı digər tərəf bu sənədə əsaslanmamlı və ya bu sənəd hər hansı digər məqsəd üçün istifadə edilməməlidir.

5 Capitals Environmental and Management Consulting
Principal office: PO Box 119899 Sheikh Zayed Road, Dubai, UAE
☏+971 4 343 5955 🖷+971 4 343 9366

# Mündəricat


1 Giriş 1

2 Layihənin Ekoloji və Sosial İdarəetmə üzrə tələbləri 2

2.1 Milli səviyyə 2

2.2 Kreditorların tələbləri 2

2.2.1 AYİB 3

2.2.2 JICA **Ошибка! Закладка не определена.**

2.2.3 OFID 3

3 Ekoloji və Sosial İdarəetmə Sistemi (ESİS) 5

3.1 ESİS-in əhatə dairəsi 6

3.2 Layihə Şirkətinin EvəS üzrə İdarəetmə Strukturları 7

3.2.1 Layihə Şirkətinin EvəS Siyasəti 7

3.2.2 Layihə Şirkəti: ESİS-in tətbiqinə dair təlimat kitabçası 7

3.3 Tikinti fazası üzrə ESİS-in hazırlanması 8

3.4 İstismar fazası üzrə ESİS-in hazırlanması 8

4 Ekoloji və Sosial Siyasət 9

4.1 Layihə Şirkətinin EvəS Siyasəti 9

4.2 Podratçı tərəflər: EvəS Siyasətləri 10

5 Hüquqi öhdəliklərin və tələblərə uyğunluq üzrə öhdəliklərin müəyyənləşdirilməsi 11

5.1 Hüquqi tələblərin müəyyənləşdirilməsi 11

5.2 ƏMSSTQ tələblərinin müəyyənləşdirilməsi 16

5.3 Dövlət orqanlarının tələblərinin müəyyənləşdirilməsi 16

5.4 Layihə Kreditorlarının tələblərinin müəyyənləşdirilməsi 16

6 Risklərin, təsirlərin və imkanların müəyyənləşdirilməsi 17

7 Ekoloji və Sosial İdarəetmə Planları və Prosedurları 18

7.1 Ekoloji və Sosial İdarəetmə Planları (TESİP və İƏESİP) 18

7.2 Dəstəkləyici/əlavə planlar və prosedurlar 20

7.2.1 Digər tövsiyə olunan planlar və prosedurlar 26

8 Monitorinq 28

8.1 ƏMSSTQ-yə əsasən monitorinq tələbləri 28
8.2 Monitorinq məlumatları 28
9 Təşkilati potensial 30
9.1 Vəzifələr və cavabdehliklər 30
9.1.1 Layihə Şirkəti (Məsul Tərəf) 30
9.1.2 MST Podratçısı / İTX Şirkəti (Cavabdeh Tərəf) 30
9.1.2.1. İdarəetmə (rəhbər) Qrupu 30
9.1.2.2. Ekoloji və Sosial İdarəetməyə görə cavabdehlik 31
9.2 Ətraf mühit və sosial sahə üzrə məlumatlılıq və təlim 33
9.2.1 Təlim sessiyalarının növü 34
9.2.2 Təlimin planlaşdırılması 34
9.2.3 Təlim sessiyalarının məzmunu 34
9.2.4 Təlim üzrə qeydlər 36
10 Audit proqramı 37
10.1 Daxili auditlər 37
10.2 “ACWA Power” şirkətinin korporativ auditləri 37
10.3 Kreditorlarla bağlı monitorinq və hesabatların verilməsi 37
11 Uyğunsuzluq və Düzəldici tədbirlər 38
11.1 Düzəldici tədbir 39
12 Fövqəladə hallara qarşı hazırlıq və cavab tədbirləri 40
12.1 Hadisələr 41
13 Maraqlı tərəflərlə qarşılıqlı əlaqə 42
13.1 Şikayətlərə baxılması mexanizmi 42
13.1.1 İşçilərin şikayətləri 42
13.1.2 Üçüncü tərəfin şikayətləri 43
13.2 Layihə üzrə İctimai Məlumat Mərkəzi 43
14 Əlaqə/kommunikasiya 45
15 Məlumatların idarə olunması və uçotun (qeydiyyatın) aparılması 46
16 BAXIŞ (YOXLAMA) 47

# Abreviaturaların siyahısı

| ABREVİATURA | MƏNASI |
|---|---|
| TESİP | Tikinti üzrə Ekoloji və Sosial İdarəetmə Planı |
| İvESİP | İstismara vermə işləri üzrə Ekoloji və Sosial İdarəetmə Planı |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| EPTP | Ekvator Prinsipləri üzrə Tədbirlər Planı |
| MST | Mühəndis-layihələndirmə, satınalma və tikinti |
| ESTP | Ekoloji və Sosial Tədbirlər Planı |
| ƏMSSTQ | Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi |
| ESİP | Ekoloji və Sosial İdarəetmə Planı |
| ESİS | Ekoloji və Sosial İdarəetmə Sistemi |
| GƏZQ | Gender əsaslı zorakılıq və qısnama |
| SƏTTƏM | Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühit |
| JICA | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi |
| TAP | Torpaqların Ayrılması Planı |
| TAKP | Torpaqların Ayrılması və Köçürülmə Planı |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| İƏESİP | İstismar Əməliyyatları üzrə Ekoloji və Sosial İdarəetmə Planı |
| OFID | OPEC-in Beynəlxalq İnkişaf Fondu |
| KP | Köçürülmə Planı |
| MTQƏP | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı |
| CQ | Cinsi qısnama |
| 5 Capitals | “5 Capitals Environmental & Management Consultancy” konsaltinq şirkəti |

# 1 Giriş

Bu sənəddə 240 MVt külək enerji layihəsi çərçivəsində Sahə 1 Külək Elektrik Stansiyası Layihəsi (“Layihə”) üçün hazırlanmış ƏMSSTQ-yə əsasən Ekoloji və Sosial İdarəetmə üzrə Çərçivə sənədi təqdim edilir.

Bu çərçivə sənədində verilən məlumatlar ƏMSSTQ-nin nəticələrindən götürülüb və bu sənəd Layihənin, tikinti, istismara vermə və istismar fazaları ilə bağlı ekoloji və sosial risklərin, təsirlərin, imkanların və tələblərə uyğunluğun idarə edilməsi üçün struktur formalaşdırmaq məqsədilə hazırlanıb. Çərçivə sənədi müvafiq tikinti, istismara vermə və istismar fazaları üzrə Ekoloji və Sosial İdarəetmə Sistemlərindən (ESİS) ibarət olacaq sistemli strukturları və idarəetmə proqramlarını ümumi şəkildə təsvir etmək üçün nəzərdə tutulub.

ƏMSSTQ sənədində müəyyənləşdirilmiş təsirazaltma və idarəetmə tədbirlərini (Hissə 2) yerinə yetirmək məqsədilə, bu mexanizmləri, habelə yerli tənzimləyici orqanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) və Layihənin Kreditorlarının tələblərini özündə birləşdirəcək xüsusi idarəetmə proqramları hazırlanacaq. Bu cür sənədləşdirilmiş məlumatlar Layihəyə xas Tikinti üzrə Ekoloji və Sosial İdarəetmə Planı (TESİP) və İstismar Əməliyyatları üzrə Ekoloji və Sosial İdarəetmə Planı (İƏESİP) (köməkçi planlar/prosedurlar) formasında hazırlanacaq; və bu, müvafiq qaydada tikinti, istismara vermə və istismar əməliyyatları başlamazdan əvvəl hazırlanacaq.

Bu Çərçivə sənədi həmçinin “ACWA Power” Layihə Şirkətinin Ekoloji və Sosial (EvəS) üzrə Siyasətinin və əlaqədar ESİS-in icrasına dair Təlimat Kitabçasının müvafiq elementlərinə uyğunluğu təmin etmək üçün hazırlanıb (onlar bütün layihələrə tətbiq edilən “ACWA Power” şirkətinin Ekoloji, Sosial və Davamlı İnkişaf üzrə Korporativ Siyasətlərinə uyğun olaraq müvafiq və strukturlu ƏMƏT layihə idarəetməsini təmin etmək üçün nəzərdə tutulub).

# 2 Layihənin Ekoloji və Sosial İdarəetmə üzrə tələbləri

Aşağıdakı tətbiq edilən müvafiq tələblər Layihədə rəsmi və strukturlaşdırılmış Ekoloji və Sosial İdarəetmə Sistemlərinin (ESİS) və ya əlaqədar siyasətlərin, idarəetmə proqramlarının və ya digər EvəS idarəetmə proseslərinin tətbiq edilməsinə olan zərurəti əks etdirir.

Bu tələblər layihənin icrasının bütün mərhələləri ərzində, sonrakı planlaşdırma və ilkin icazələrin alınması zamanı (yəni, tikinti, istismara vermə, istismar əməliyyatları, yekunlaşdırma, istismardan çıxarma və bağlanma) tətbiq olunur

## 2.1 Milli səviyyə

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında ölkədə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərin istifadəsi ilə bağlı fəaliyyətin tənzimlənməsindən məsul olan tənzimləyici orqan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyidir (ETSN).

Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə hüquqi, iqtisadi və sosial baza 1999-cu il tarixli "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (No 678-IQ) və ona dəyişikliklər edən qanunlar (1032-IVQD, 932-IVQD, 590-VQD və 553-IVQD saylı qanunlar) ilə tənzimlənir.

14 iyul 2018-ci il tarixində Azərbaycanda yeni "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun qəbul edilib və burada Azərbaycan ərazisində məcburi ƏMTQ tələbləri müəyyənləşdirilir. Bu qanunun məqsədi dövlət və özəl sektorda inşaat layihəsi həyata keçirən tərəflərin nəzərdə tutduğu iqtisadi fəaliyyətlərlə bağlı olaraq təbii mühitə və insan sağlamlığına təsirlərin qiymətləndirilməsi üçün hüquqi, iqtisadi və təşkilati prinsipləri müəyyənləşdirən "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunun 54.2-ci maddəsinin qüvvəyə minməsini təmin etməkdir.

ƏMTQ haqqında Qanunun tələblərinə əsasən ƏMTQ çərçivəsində Layihə üçün Ekoloji İdarəetmə və Monitorinq Planı (EİMP) hazırlanmalıdır.

## 2.2 Kreditorların tələbləri

Belə başa düşülür ki, "ACWA Power" şirkəti aşağıdakı kreditorlardan potensial olaraq layihə üçün maliyyələşmə əldə etməyə çalışır:

- Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB);
- Asiya İnkişaf Bankı (AİB);
- OPEC-in Beynəlxalq İnkişaf Fondu (OFID).

### 2.2.1 AYİB

AYİB daxili Ekoloji və Sosial Siyasətə (2019) və eləcə də öz investisiyalarında nəzərə alınmalı, qiymətləndirilməli və idarə olunmalı əsas ekoloji və sosial komponentləri əhatə edən bir sıra xüsusi İcra Göstəricisi üzrə Tələblərə (İGT-lər) malikdir. Bunlar AYİB-in öz investisiyalarında Aİ-nin ekoloji standartlarını, habelə Avropanın Ətraf Mühit üzrə Prinsiplərini təşviq etmək öhdəliyini əks etdirir.

Ekoloji və Sosial Təsirlərin və Problemlərin Qiymətləndirilməsi və İdarə Edilməsi barədə İcra Göstəricisi üzrə Tələb 1-də (İGT1) müştərilərdən Ekoloji və Sosial İdarəetmə Sisteminin (ESİS) yaradılmasını və qüvvədə saxlanılmasının tələb edən bir sıra tələblər müəyyənləşdirilir; bu sistem *" layihənin xarakterinə və miqyasına müvafiq olmalıdır və Qabaqcıl Beynəlxalq Təcrübəyə uyğun olaraq layihənin ekoloji və sosial təsirlərinin və problemlərinin səviyyəsinə mütənasib olmalıdır. Bu cür idarəetmə sisteminin məqsədi ekoloji və sosial tələblərin icrasını nizamlanmış və koordinasiya edilmiş bir prosesə inteqrasiya etmək və onu müştəri tərəfindən aparılan təsirlərin və problemlərin qiymətləndirilməsi üzrə əsas istismar fəaliyyətlərinə tətbiq etməkdir."* Bundan əlavə, layihələrdən tələb olunur ki, layihənin ekoloji və sosial məqsədlərini müəyyənləşdirən əhatəli bir siyasət hazırlasın. Həmçinin ƏMSSTQ-nin nəticələrinə və maraqlı tərəflərlə qarşılıqlı əlaqə prosesinə əsasən ESİP hazırlanacaq.

### 2.2.2 AİB

AİB-nin 1 saylı Mühafizə Tədbiri üzrə Tələblərində (Ətraf Mühitə) AİB tərəfindən dəstəklənən layihələr üçün ətraf mühitin qorunması tədbirlərini həyata keçirərkən müştərilərin yerinə yetirməli olduğu tələblər təsvir edilir. Bu Mühafizə Tədbirinə əsasən, layihələrdən Ekoloji İdarəetmə Planı (EİP) hazırlamaq tələb olunur və həmin plana "təklif edilən təsirlərin azaldılması tədbirləri, ətraf mühitin monitorinqi və hesabat tələbləri, fövqəladə hallara cavab prosedurları, müvafiq institusional və ya təşkilati tədbirlər, potensialın inkişaf etdirilməsi tədbirləri və təlimi, icra qrafiki, xərc hesablamaları və fəaliyyət göstəriciləri" daxil edilməlidir.

### 2.2.3 OFID

OPEC-in Beynəlxalq İnkişaf Fondu (OFID) aşağı və orta gəlirli ölkələrə sosial-iqtisadi təsir ilə əlaqədar tədbirlərin icrasını qarşısına məqsəd qoymuş çoxyönlü inkişafı təmin edən maliyyə institutudur. Neft İxrac Edən Ölkələr Birliyinə (OPEC) üzv dövlətlər tərəfindən 1976-cı ildə əsası qoyulmuş OPEC fondu aydın mandate əsasında beynəlxalq inkişafı tam diqqət mərkəzində saxlayan ayrıca müəssisədir.

- OPEC fondunun əsas mülahizəsi inkişaf layihəsinin və ya proqramının sosial, iqtisadi və ekoloji cəhətdən yerinə yetirilə bilməsi və onun partnyor ölkədə davamlı inkişaf məqsədlərinə yardımıdır. OPEC fondu həmçinin, kommersiya, texniki və maliyyə imkanlarının, habelə, sosial və ekoloji sahədə kompleks hüquqi yoxlamanın əsasında layihələri və proqramları qiymətləndirir.

### 2.2.4 Dünya Bankı Qrupu (DBK)/BMK

**Qeyd**: BMK bu Layihənin maliyyələşdirilməsinə cəlb olunmayıb, lakin ACWA Power şirkətinin daxili siyasəti BMK-nın İcra Standartlarına və müvafiq DBQ-nin ƏMSƏT Təlimatlarına riayət edilməsini nəzərdə tutur. Buna görə də, həmin tələblər ƏMSSTQ-də göstərilmişdir.

BMK İS1-ə standartına uyğun olaraq, layihə "layihənin xarakterinə və əhatə dairəsinə uyğun ESİS yaradacaq və qüvvədə saxlayacaq". ESİS aşağıdakı elementləri əhatə edəcək: (i) siyasət; (ii) risklərin və təsirlərin müəyyən edilməsi; (iii) idarəetmə proqramları; (iv) təşkilatçılıq qabiliyyəti və səriştəsi; (v) fövqəladə hallara hazırlıq.

# 3 Ekoloji və Sosial İdarəetmə Sistemi (ESİS)

Layihənin ESİS sistemi ekoloji və sosial risklərin, təsirlərin, imkanların və əlaqədar tələblərə uyğunluğun effektiv icrasına və idarə edilməsinə imkan yaradan sistemli struktur və yanaşma təmin edəcək

Ekoloji və sosial problemlərin effektiv şəkildə idarə edilməsinə güclü ESİS-in tərkibində aşağıdakı fundamental komponentlər daxil olacaq:

- Nəzərə alınmalı ekoloji və sosial aspektlər (o cümlədən işçi qüvvəsi, İnsan Resursları, xarici maraqlı tərəflər və təsirə məruz qalan icmalar) ilə bağlı layihəyə spesifik siyasətlər;
- Layihə əsaslı EvəS məqsədləri, hədəflər, monitorinq və idarəetmə proqramları (o cümlədən layihəyə xas metodların və prosedurların təfərrüatlar);
- Tətbiq edilən müvafiq ekoloji və sosial hüquqi tələblər və digər tələblərə uyğunluq öhdəlikləri (məsələn kreditorlar tərəfindən tələb olunanlar);
- Tikinti, istismara vermə və istismar fazalarının planlaşdırılması üçün mümkün qədər tez Ekoloji və Sosial aspektlər və potensial təsirlər, o cümlədən nəzərə alınmalı ekoloji və sosial məqamların kadrlar üzrə tələblərə, proses planlarına, proqramın hazırlanması prosesinə, iş sifarişlərinə, tələb olunan icazələrə və sahənin ümumi yerləşmə sxeminə daxil edilməsi;
- Ətraf mühitə təsirləri və riskləri qiymətləndirmək və idarə etmək üçün, habelə bu sənəddə təqdim olunan texniki tələbləri ehtiva edən xüsusi layihələr və ya fəaliyyətlər üçün plan və prosedurların hazırlanması da daxil olmaqla xüsusi ekoloji və sosial idarəetmə funksiyalarını yerinə yetirmək üçün lazım olan təcrübəyə, səriştəyə və təhsilə malik olan ekoloji və sosial məsələlər üzrə mütəxəssislər;
- Bərpaolunmaz və / və ya əhəmiyyətli təsirlərin qarşısının alınmasını hədəf götürməklə, insanların rifahı və ətraf mühit üçün risklərin ümumi azaldılmasına nail olmaq məqsədilə idarəetmə proqramlarını / strategiyalarını prioritet götürmək;
- Təsirin səbəbini mənbəyində aradan qaldıran strategiyalara (mümkün olduqda) üstünlük vermək, məsələn, ekoloji nəzarət tədbirlərinə ehtiyacı aradan qaldıran daha az təhlükəli materialların və ya proseslərin seçilməsi vasitəsilə;
- Təsirin qarşısını almaq mümkün olmadıqda, arzuedilməz nəticələrin baş vermə ehtimalını və/və ya miqyasını azaltmaq yaxud minimuma endirmək üçün nəzarət tədbirlərinin tətbiq edilməsi, məsələn atılan çirkləndiricilərin səviyyələrini azaltmaq üçün çirklənmə əleyhinə nəzarət tədbirləri tətbiq etməklə;
- Fövqəladə hadisələrə, qəzalara qarşı cavab tədbirlərinin görülməsi, o cümlədən bu cür hadisələri effektiv və təhlükəsiz şəkildə nəzarət altına almaq üçün texniki və maliyyə resurslarının təmin edilməsi və iş yerində və icmada ətraf mühitin bərpa olunması ilə əlaqədar işçilərə təlimat vermək, yaxınlıqdakı icmaları və əlaqədar maraqlı tərəfləri məlumatlandırmaq və onlarla əməkdaşlıq etmək;
- Obyektin fəaliyyətinin davamlı monitorinqi və effektiv hesabatlılıq vasitəsilə ekoloji göstəriciləri yaxşılaşdırmaq (yəni davamlı təkmilləşmə üçün);
- Müvafiq qaydada, tənzimləyici orqanlar və kreditorlar üçün şirkətdaxili və üçüncü tərəfin müstəqil auditləri də daxil olmaqla monitorinq və hesabatlılıq.

ESİS-in ilkin tətbiqi tələblərin müəyyənləşdirilməsi və nəzərdən keçirilməsinə, layihə qrupu daxilində qəyyumluğun (sənədlərin saxlanılmasına cavabdehliyin) müəyyənləşdirilməsinə, büdcələrin təyin edilməsinə, icra göstəriciləri üzrə hədəf diapazonların təyin edilməsinə və müvafiq məlumat toplama metodlarının və nəzarətlərinin qurulmasına yönələcək.

Daha çox məlumat əldə edildikcə icra göstəricilərinin diapazonları müntəzəm qaydada yenilənəcək və bu da daha dəqiq strategiyanın hazırlanmasına və müqayisələrin aparılmasına imkan verəcək. Beləliklə, ESİS sənədləri işlək ("canlı") sənədlər kimi qəbul ediləcək və davamlı təkmilləşdirmə prosesinin bir hissəsi olaraq yenilənəcəkdir.

ESİS üzrə icra prosesinin ümumi təsviri aşağıdakı şəkildə göstərilir.

**Təsvir 3-1 İcra prosesi**




## 3.1 ESİS-in əhatə dairəsi

Layihə çərçivəsində müvafiq tikinti və istismar fazaları üçün ESİS-lər hazırlanacaq və tətbiq ediləcək. Əhatə dairəsinə aşağıdakılar daxil edilməlidir:

- ESİS-in əhatə dairəsinin təyin edilməsi üçün layihənin fiziki elementləri (yəni, buraya layihənin fiziki əhatə zonası və müvafiq Əlaqədar Qurğular daxil olacaq);
- Layihə ilə bağlı həyata keçirilən fəaliyyətlər və layihənin fazasına (tikinti, istismara vermə, istismar, istismardan çıxarma və lazım gəldikdə yekunlaşdırma sonrası mərhələ) müvafiq olan fəaliyyətlər;
- Qüvvədə olan müvafiq milli normativlərə, kreditorların tələblərinə və kredit öhdəliklərinə (ESTP-də olanlar daxil olmaqla) uyğunluq ;
- ƏMSSTQ-dən müəyyənləşdirilmiş tikinti, istismara vermə və istismar fazaları üzrə təsirlərdən sonra tələb olunan müfəssəl təsirazaltma və idarəetmə tədbirləri;
- Müvafiq idarəetmə strukturundakı təşkilati bölmələrin vəzifələri və cavabdehlikləri;
- Əsas təchizat zəncirləri ilə bağlı əsas risklər və idarəetmə tələbləri (məqsədəuyğun dərəcədə idarə edilə bilən);
- Monitorinq və hesabatlılıq üzrə tələblər (təftiş, audit, yoxlama və qabaqlayıcı tədbirlər daxil olmaqla).

## 3.2 Layihə Şirkətinin EvəS üzrə İdarəetmə Strukturları

### 3.2.1 Layihə Şirkətinin EvəS Siyasəti

“ACWA Power” öz obyektləri boyunca müvafiq siyasətin hazırlanmasına təmin etmək üçün Layihə Şirkətləri üçün EvəS Siyasəti üzrə standart struktura malikdir. Əlavə məlumat üçün xahiş olunur aşağıdakı “EvəS Siyasəti” bölməsinə baxın.

### 3.2.2 Layihə Şirkəti: ESİS-in tətbiqinə dair təlimat kitabçası


ACWA Power HSSE Management System Document

Project Company

Environmental & Social Management System Implementation Manual

Yuxarıda qeyd edilmiş EvəS Siyasətinin standart nümunəsindən əlavə, Layihə Şirkəti öz Ekoloji və Sosial idarəetməsini “Layihə Şirkəti – Ekoloji və Sosial İdarəetmə Sistemi: Tətbiqə dair Təlimat Kitabçası”na uyğunlaşdıracaq. Bu təlimat kitabçası bütün Layihə Şirkətlərinə təqdim olunan korporativ sənəddir.

Sənədin məqsədi “ACWA Power” şirkətinə məxsus olan və ya onun ortaqlığı ilə həyata keçirilən layihələrdə müəyyənləşdirilmiş “ACWA Power” şirkətinin Layihə Şirkətləri tərəfindən Ekoloji və Sosial İdarəetmə ilə bağlı əsas elementlərin müvafiq qaydada yerinə yetirilməsini təmin etmək üçün rəhbər prinsipləri təqdim etməkdir.

## 3.3 Tikinti fazası üzrə ESİS-in hazırlanması

EvəS üzrə tələblərə uyğunluğa və idarəetməyə ümumi cavabdehlik daşıyan tərəf kimi, Layihə Şirkəti layihəyə spesifik olan EvəS Siyasəti hazırlayacaq və tətbiq edəcək. Lakin, əsas tikinti fazası üzrə ESİS Mühəndis-layihələndirmə, Satınalma və Tikinti (MST) Podratçısı tərəfindən hazırlanacaq ə tətbiq ediləcək. Bu, MST üzrə bağlanılan müqavilədə təsbit ediləcək.

Tikinti fazası üzrə ESİS Layihə Şirkətinin EvəS Siyasətinin tələblərinə, hazırkı Ekoloji və Sosial İdarəetmə üzrə Çərçivə sənədinə və "ACWA Power: Layihə Şirkətinin ESİS-in tətbiqinə dair Təlimat Kitabçası"na uyğunlaşdırılacaq.

MST Podratçısının ESİS sistemi Layihənin tikinti fazasının əhatə dairəsinə düşən bütün potensial ekoloji və sosial risklərin, təsirlərin, imkanların və əlaqədar tələblərə uyğunluğun nəzərə alınmasını təmin edəcək (o cümlədən təsirə məruz qala biləcək təchizat zəncirində əsas EvəS riskləri və subpodratçılar ilə bağlı potensial təsirlər). Buraya istismara vermə fəaliyyətləri və tikinti sonrası fəaliyyətlər (məsələn sahənin demobilizasiyası, tikinti zamanı istifadə edilmiş torpağın bərpası və s.) daxil olacaq.

## 3.4 İstismar fazası üzrə ESİS-in hazırlanması

İstismar fazası üzrə ESİS İTX Şirkəti tərəfindən hazırlanacaq və tətbiq ediləcək və Layihə Şirkətinin müəyyənləşdirdiyi EvəS Siyasətinə uyğunlaşdırılacaq. Bu İTX üzrə Müqavilədə əhatə ediləcək.

İTX Şirkətinin ESİS sistemində Layihənin istismar fazasının əhatə dairəsinə düşən bütün potensial ekoloji və sosial risklərin, təsirlərin, imkanların və əlaqədar tələblərə uyğunluğun nəzərə alınmasını təmin edəcək (o cümlədən təsirə məruz qala biləcək subpodratçılar və/və ya digər təchizatçılar ilə bağlı potensial təsirlər).

# 4 Ekoloji və Sosial Siyasət

Layihə ekoloji və sosial problemlər/tələblərə uyğunluq ilə bağlı layihəyə spesifik siyasətlərin, öhdəliklərin və əlaqədar məqsədlərin müəyyənləşdirildiyi aydın bəyanatlar hazırlamalı olacaq.

## 4.1 Layihə Şirkətinin EvəS Siyasəti

“ACWA Power” şirkətinin öz obyektləri boyunca müvafiq siyasətin hazırlanmasına təmin etmək üçün Layihə Şirkətləri üçün EvəS Siyasəti üzrə standart strukturu var. O, “ACWA Power” şirkətinin korporativ səviyyədəki geniş əhatəli siyasətlərinə uyğunlaşmaq və eyni zamanda milli və kreditor tələblərinin əhatə olunmasını təmin etmək üçün nəzərdə tutulub.

Bu standart nümunəyə əsasən Layihə Şirkətinin EvəS Siyasəti hazırlanacaq və buraya aşağıdakılar üzrə öhdəliklər daxildir:

- Ekoloji və sosial məsələlər üzrə müvafiq hüquqi, müqavilə, maliyyələşmə tələblərinə və öhdəliklərinə, o cümlədən tətbiq olunan müvafiq beynəlxalq müqavilələr və protokollar, milli qanunvericilik, icazə şərtləri və kreditorlarımızın tələblərinə riayət etmək;
- Qabaqcıl beynəlxalq təcrübəyə müvafiq olan və BMK-nın İcra Standartlarına (ən azı), Ekvator Prinsiplərinə (EPMİ-lər səlahiyyətləndirilibsə) və ESİS-ə tətbiq olunan digər kreditor tələblərinə uyğun olan risk əsaslı Ekoloji və Sosial İdarəetmə Sistemi (ESİS) tətbiq etmək;
- Təbii resurslarının istehlakının idarə edilməsi və azaldılması üçün tədbirlər görmək və eyni zamanda qiymətləndirmə sənədlərinə, icazə və kreditor şərtlərinə uyğun olan, çirklənmənin qarşısını almaq üçün müəyyənləşdirilmiş idarəetmə tədbirləri yerinə yetirmək;
- İşçilər və maraqlı tərəflərlə ekoloji və sosial problemlər barədə ünsiyyət qurmaq və layihə işçiləri və üçüncü tərəf olan maraqlı tərəflər üçün effektiv Şikayətlərə Baxılması Mexanizmini tətbiq etmək;
- İnsan Haqları haqqında Beynəlxalq Billə və eləcə də qadın və uşaq hüquqlarına aid digər insan hüquqları sənədlərinə uyğun olaraq insan hüquqlarına dəstək vermək, hörmət göstərmək, onları müdafiə etmək və yerinə yetirmək;
- BMK-nın İS2 (işçilərin idarə edilməsinə dair) standartında qeyd edilmiş BƏT-in konvensiyalarına riayət etməklə, bərabər imkanlar əsasında və ayrı-seçkiliyə yol vermədən işçiləri işə götürmək;
- İşçilərin fəaliyyətlərinə və xidməti vəzifələrinə uyğun olaraq ətraf mühit və sosial sahə haqqında məlumatlandırılmasını, ətraf mühit və sosial sahə üzrə liderlik mövzusunda təlimlər almasını və təlimatlandırılmasını təmin etmək;
- GƏZQ/CİZ/CQ hallarını hər hansı formada qəbul etməmək və tolerantlıq göstərməmək;
- GƏZQ/CİZ/CQ hallarının aşkar edilməsi, araşdırılması və aradan qaldırılması üçün proseslər hazırlamaq, eyni zamanda bu kimi halların bildirilməsini təşviq etmək, bu

cür hallarla rastlaşmış şəxsləri dəstəkləmək və onların ləyaqətini, hörmətini və məxfiliyini təmin etmək;

- Əsas təchizat zəncirlərinin və xidmət təchizatçılarının ekoloji və sosial göstəricilərini təşviq və təmin etmək üçün icra göstəriciləri təyin etmək.
- Ekoloji və sosial idarəetmə və icra göstəricisini monitorinq etmək, audit etmək və hesabatla məruzə etmək üçün sistemli rəy bildirmə sistemləri tətbiq etmək;
- Bu ekoloji və sosial siyasət haqqında bəyanatı illik olaraq nəzərdən keçirmək və ESİS daxilində əldə edilməli davamlı təkmilləşməyə imkan yaratmaq üçün icra və idarəetmə hədəfləri təyin etmək.

Bu siyasət layihə şirkətinin yüksək rəhbərliyi tərəfindən imzalanacaq, sahədə yerləşdiriləcək və Layihə podratçılarına da paylanacaq ki, onlar da buna riayət etsin.

## 4.2 Podratçı tərəflər: EvəS Siyasətləri

MST Podratçısı və İTX Şirkəti həmçinin Layihə Şirkətinin hərtərəfli layihəyə xas EvəS Siyasətinə uyğun olan Ekoloji və Sosial Siyasətlər hazırlayacaq.

Layihənin podratçı tərəfləri tərəfindən Ekoloji və Sosial Siyasət hazırlanmadığı hallarda, müvafiq tikinti və istismar fazaları üzrə ESİS-lər (podratçı tərəflərin hazırladığı) Layihə Şirkətinin hərtərəfli EvəS Siyasətini rəhbər tutacaq.

# 5 Hüquqi öhdəliklərin və tələblərə uyğunluq üzrə öhdəliklərin müəyyənləşdirilməsi

## 5.1 Hüquqi tələblərin müəyyənləşdirilməsi

ESİS-in hazırlanması zamanı aşağıdakılar da daxil olmaqla (lakin bunlarla məhdudlaşmayaraq) tətbiq olunan ekoloji və sosial hüquqi tələblər müəyyənləşdiriləcək və sənədləşdiriləcək:

**QANUNLAR**

- “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (14 iyul 2018-ci il);
- “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 796 saylı Fərmanı
- Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının 840-IQ saylı Qanunu;
- “Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikasının 109-IIQ saylı Qanunu;
- “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanunu (yolların tikintisi və ya bərpası işləri aparılan zaman ətraf mühitin mühafizəsi, ETSN-dən rəsmi icazələr);
- SNIP 2.05.02-85 “Avtomobil yolları haqqında” Tikinti Norma və Qaydaları, Ətraf Mühitin Mühafizəsi (torpağın üst qatının idarə olunması, yerli icmanın mühafizəsi, səs-küyün azaldılması, təsirsiz tullantıların kənarlaşdırılması və s.);
- “Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 266 saylı qərarı;
- “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının 470-İG saylı Qanunu;
- Mühafizə olunan ərazilər haqqında 840-IQ saylı qanun;
- Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Qanunu;
- Su Məcəlləsi (Su ehtiyatlarının mühafizəsi);
- “Sanitariya-epidemioloji salamatlıq haqqında” Qanun
- İctimai irsin qorunması;
- Azərbaycan Respublikasının Su Məcəlləsi (418-IQ nömrəli Qanunla təsdiq edilib);
- "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Prezidentin Fərmanı;

- Bələdiyyələrin su təsərrüfatı haqqında Qanun
- “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” 432-İQ saylı Qanun (qeyri-dağıdıcı sınaq üçün hər hansı radiasiya mənbəyindən istifadə ediləcəksə);
- “Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyasına qoşulması barədə” Azərbaycan Respublikası Qanunu;
- “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanunu
- “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Azərbaycan Respublikası Torpaq Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Ətraf mühitə dair informasiya almaq haqqında” Azərbaycan Respublikası Qanunu;
- "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə Azərbaycan Respublikası Qanunu;
- "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikası Qanunu;
- “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanunu;
- “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanunu;
- "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikası Qanunu;
- Azərbaycan Respublikasının "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" BMT-nin Konvensiyasına qoşulması barəsində Azərbaycan Respublikası Qanunu;
- "Birləşmiş Millətlər Təşkilatının "İqlim Dəyişmələri haqqında" Çərçivə Konvensiyasına dair" Kioto Protokoluna qoşulmaq barədə Azərbaycan Respublikası Qanunu.
- Azərbaycan Respublikasının İstehsalat və məişət tullantıları haqqında 1998-ci il tarixli 514-IQ nömrəli Qanunu;
- "Təhlükəli tullantıların pasportlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2003-cü il tarixli 41 nömrəli Qərarı;
- "Tullantıların yığılması (toplanması), yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsinə görə haqqın müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2008-ci il tarixli 185 nömrəli Qərarı;
- "İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2008-ci il tarixli 13 nömrəli Qərarı;

- “Təhlükəli tullantıların saxlanılması Qaydası”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2016-cı il tarixli 228 nömrəli Qərarı;
- Azərbaycan Respublikasının Su təchizatı və tullantı suları haqqında 1999-cu il tarixli 723-1Q nömrəli Qanunu.

**FƏRMANLAR**

- “İcbari ekoloji sığorta haqqında” Azərbaycan Respublikasının 271 saylı Qanunu;
- Tikinti fəaliyyəti həyata keçirilərkən yaşıllıqların mühafizəsi və sürüşmə zonalarında təhlükəsizliyin təmin olunması sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Torpaq ilə bağlı Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

**İŞÇİ QÜVVƏSİ, MƏŞĞULLUQ VƏ TORPAQLARIN AYRILMASI**

- Azərbaycan Respublikasının Konstitusiyası;
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi -  fevral 1999.
- Azərbaycan Respublikasının müvafiq qanunları;
- Müvafiq icra hakimiyyəti orqanlarının öz səlahiyyətləri çərçivəsində qəbul etdikləri normativ - hüquqi aktlar;
- Əmək və sosial-iqtisadi məsələlərlə bağlı Azərbaycan Respublikasının imzaladığı və ya dəstəklədiyi beynəlxalq müqavilələr;
- Azərbaycan Respublikasının Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Konstitusiyada müəyyənləşdirilir ki, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.
- Torpaq icarəsi haqqında qanun (11 dekabr 1998-c il, № 587-IQ);
- “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə Azərbaycan Respublikası prezidentinin fərmanı (15 fevral 2011-ci il);;
- "Azərbaycan Respublikası Mülki Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 506-3 QD №-li, 7 dekabr 2007-ci il tarixli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı (26 dekabr 2007-ci il);
- “Köçürülmə planı və köçürülmə təlimatının hazırlanması Qaydası”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 45 saylı, 24 fevral 2012-ci il tarixli qərarı;

- “Köçürülmə planı və ya köçürülmə təlimatını hazırlayan şəxs və ya təşkilatın seçilməsi üzrə müsabiqənin keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 55 saylı, 21 aprel 2011-ci il tarixli qərarı;
- Nazirlər Kabinetinin 110 saylı, 28 iyun 1999-cu il tarixli qərarı;
- Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında 42 saylı, 15 mart 2000-ci il tarixli qərarı;
- Bələdiyyələrin əraziləri və torpaqları haqqında Azərbaycan Respublikasının 771-IQ nömrəli, 7 dekabr 1999-cu il tarixli qanunu;
- Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının 160-IIQ nömrəli, 29 iyun 2001-ci il tarixli qanunu.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmiş ekoloji konvensiyaların və protokolların siyahısı aşağıdakı Cədvəldə (Azərbaycan Respublikası Milli Məclisinin ratifikasiya etdiyi Ekoloji Konvensiyalar və Protokollar - 2020) təqdim edilir. Layihə aşağıdakı protokolların və konvensiyaların ekoloji və sosial tələblərinə riayət etməlidir.

Hər hansı yeni qaydaların və ya standartların TESİP/İƏESİP-ə daxil olunmasını təmin etmək üçün Layihənin hüquqi tələblərə dair reyestri illik olaraq nəzərdən keçiriləcək və yeniləcək.

**Cədvəl 5-1 Ətraf Mühit və İnsan Hüquqları üzrə müqavilələr, konvensiyalar və protokollar (“Treaty Body” məlumat bazası - 2020).**

| Konvensiyanın/Protokolun adı | İmzalanıb/Ratifikasiya edilib |
|---|---|
| **Ətraf mühit üzrə** | |
| YUNESKO-nun “Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyası (Ramsar şəhəri, 2 fevral 1971-ci il) | - |
| “Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında” Konvensiya (CITES) | |
| Ozon Qatının Mühafizəsi haqqında Vyana Konvensiyası | 1985 |
| Arxeoloji İrsin Qorunması haqqında Avropa Konvensiyası | 1992 |
| Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyası – Beynəlxalq Mülki Aviasiyada Avimemeteroloji Təchizat barədə Yekunlar, Bölmə 2 14.1 | 3 oktyabr 1993-cü il |
| Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında Konvensiya, 16 noyabr 1972-ci il | 6 dekabr 1993-cü il |
| BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyası | 1994 |
| “Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Konvensiya (Espo şəhəri, 25 fevral 1991-ci il) | 01.02.1999 |
| “Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında” Avropa Konvensiyası (Bern, 19 sentyabr 1979-cu il) | 01.02.1999 |
| Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsinə dair Konvensiya | 01.02.1999 |
| “Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" BMT-nin Konvensiyası (Orxus şəhəri, 25 iyun 1998-ci il) | 09.11.1999 |
| BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (Kioto Protokolu - 1992) | 18.07.2000 |
| “Ozon qatını dağıdan maddələr üzrə” Monreal Protokolu (15-17 sentyabr 1997-ci il) | 18.07.2000 |

| Konvensiyanın/Protokolun adı | İmzalanıb/Ratifikasiya edilib |
|---|---|
| Bioloji müxtəliflik haqqında Konvensiya (5 iyun 1992-ci il), Bioloji müxtəliflik haqqında konvensiyaya biotəhlükəsizliyə dair Kartagena Protokolu - Biotechnic 23 PROTOCOLES 23.0355A. | - |
| Bitki mühafizəsi haqqında beynəlxalq Konvensiya (Roma, 1951-ci il) | 14.03.2000 |
| Birləşmiş Millətlər Təşkilatının "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyası – 22 mart 1992-ci il (Helsinki şəhəri, 17 mart 1992-ci il) | - |
| | - |
| Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında" Bazel Konvensiyası - 22 mart 1989-cu il (22 aprel 1989-cu il) | - |
| "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Konvensiya (Cenevrə şəhəri, 13 noyabr 1979-cu il) | 09.04.2002 |
| "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası (22 may 2001-ci il) | 09.12.2003 |
| "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya (Helsinki şəhəri, 17 mart 1992-ci il) | 04.05.2004 |
| "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası (Tehran şəhəri, 4 noyabr 2003-cü il) | 04.04.2006 |
| "Avropa landşaft Konvensiyası" (Florensiya şəhəri, 2000-ci il oktyabr ayı) | 24.06.2011 |
| **İnsan hüquqları üzrə** | |
| Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt | 13 avqust 1992-ci il |
| Uşaq hüquqları haqqında Konvensiya | 13 avqust 1992-ci il |
| İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt | 13 avqust 1992-ci il |
| Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya | 10 iyul 1995-ci il |
| "İşgəncələrə və digər qəddar, qeyri-insanı, yaxud ləyaqət alçaldan davranış və cəza növlərinə qarşı" Konvensiya | 16 avqust 1996-cı il |
| İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya | 16 avqust 1996-cı il |
| Bütün fəhlə mühacirlərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya | 11 yanvar 1999-cu il |
| Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın ölüm hökmünün ləğvini nəzərdə tutan İkinci Fakültativ Protokolu | 22 yanvar 1999-cu il |
| "Uşaq hüquqları haqqında Konvensiya"nın Uşaqların silahlı münaqişələrdə iştirakı ilə əlaqədar Fakültativ Protokolu | 3 iyul 2002-ci il |
| "Uşaq hüquqları haqqında Konvensiya"nın Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu | 3 iyul 2002-ci il |
| Bütün şəxslərin məcburi itmələrdən müdafiəsi haqqında Beynəlxalq Konvensiya | 6 fevral 2007-ci il |
| Əlillərin hüquqları haqqında Konvensiya | 28 yanvar 2009-cu il |
| İşgəncələrə qarşı Konvensiyanın Fakültativ Protokolu | 28 yanvar 2009-cu il |

## 5.2 ƏMSSTQ tələblərinin müəyyənləşdirilməsi

ƏMSSTQ-nin 2-ci hissəsində layihənin müvafiq tikinti, istismara vermə və istismar fazalarına daxil edilməli olan Layihə və/və ya sahə üzrə xüsusi təsirazaltma, idarəetmə və monitorinq tədbirləri hazırlanmışdır.

Tənzimləyici orqan və layihə kreditorları tərəfindən ƏMSSTQ-nin təsdiqlənməsindən sonra bu qeyd edilmiş tədbirlər təsdiqin şərtləri olur.

## 5.3 Dövlət orqanlarının tələblərinin müəyyənləşdirilməsi

ETSN və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Layihə üçün verilmiş ekoloji icazə nəzərdən keçirilməlidir ki, tikinti, istismara vermə və istismar fazaları ilə bağlı müəyyənləşdirilmiş bütün əlaqədar şərtlərin müvafiq qaydada idarə olunması təmin edilsin. ETSN-nin və Mədəniyyət və Turizm Nazirliyinin icazə və təsdiq şərtlərinə riayət edilməməsi qanunvericiliyin və icazə tələblərinin pozulması ilə nəticələnə bilər. Ekoloji icazə ESİS çərçivəsində qüvvədə saxlanılacaq.

## 5.4 Layihə Kreditorlarının tələblərinin müəyyənləşdirilməsi

ƏMSSTQ-yə cavab olaraq, layihə üçün maliyyələşmə təmin edən Maliyyə İnstitutları ƏMSSTQ-yə uyğun qaydada və ya əlavə kimi layihə üçün Ekoloji və Sosial tələbləri müəyyənləşdirən Tədbirlər Planı hazırlayacaq. Bu, adətən Ekoloji və Sosial Tədbirlər Planı (ESTP) adlanır və ya həmçinin Ekvator Prinsipləri üzrə Tədbirlər Planına (EPTP) aid edilə bilər. Tədbirlər planının tələbləri Layihə kreditinin şərti olacaq.

ESİS-in hazırlanması zamanı, Layihə üçün kreditorların tədbirlər planı nəzərdən keçirilməlidir ki, tələblərə uyğunluğun idarə edilməsi üçün bütün əlaqədar şərtlərin nəzərə alınması təmin edilsin. Vurğulanır ki, kreditorların tələblərinə riayət edilməməsi maliyyə ödənişlərinə və digər amillərə təsir göstərə bilər.

# 6 Risklərin, təsirlərin və imkanların müəyyənləşdirilməsi

Layihə üzrə ESİS-in hazırlanmasında əsas mərhələlərdən biri layihənin həmin fazasında həyata keçirilən müvafiq fəaliyyətlərlə bağlı potensial ekoloji və ya sosial təsirləri əlaqələndirən Layihənin xüsusi aspektlər/risklər reyestrinin (qeydiyyat jurnalının) hazırlanmasıdır.

Ekoloji və sosial aspektləri və əlaqədar risklər müəyyənləşdirildikdən və sənədləşdirildikdən sonra (yəni, xüsusi qaydada tələb olunan tikinti üzrə metod sənədlərinə və ya istismar fəaliyyətlərinə uyğun qaydada), gözlənilən kəskinlik dərəcəsinə, baş vermə ehtimalına və hər hansı qanunvericiliyin və ya kreditorların tələblərinə uyğun olan əlaqədar nəzarət tədbirləri hazırlanmalıdır. Risklərin və təsirlərin müəyyənləşdirilməsinin əsas etibarilə ƏMSSTQ-də müəyyənləşdirilmiş elementlərlə uyğunlaşdırılacağı gözlənilir, lakin buraya xüsusi iş metodları ilə bağlı ola biləcək əlavə elementlər də daxil ola bilər.

Aspektləri/riskləri və əlaqədar ekoloji və ya sosial təsirləri müəyyənləşdirərkən aşağıdakılar nəzərə alınacaq:

- Layihə fəaliyyətləri ilə əlaqəli olan risklər, təsirlər və imkanlar;
- Dəyişiklik, o cümlədən planlaşdırılmış və ya yeni hazırlanmış və/və ya yeni/düzəliş edilmiş fəaliyyətlər;
- Qeyri-normal şərait və əsaslı olaraq qabaqcadan proqnozlaşdırıla bilməyən fövqəladə hallar;
- Layihənin vaxt qrafikləri və mövsümiliklə bağlı potensial təsirlər;
- Maraqlı tərəflərin fikirləri;
- Tələblərə uyğunluq öhdəlikləri;
- Sahədəkilərdən əlavə təchizat zəncirinə xas olan risklər;
- Layihənin Sağlamlıq və Əməyin Təhlükəsizliyin İdarə Olunması Sistemi ilə əlaqələr.

Aspektlərin/risklərin və təsirlərin müəyyənləşdirilməsi sənədləşdirilməlidir, nəzərdə tutulan əlaqədar nəzarət tədbirləri ilə əlaqələndirilməlidir və Layihədə və ya ekoloji və sosial şəraitdə dəyişiklik olduqda yenilənməlidir.

# 7 Ekoloji və Sosial İdarəetmə Planları və Prosedurları

Ekoloji və sosial aspektlər və əlaqədar risklər müəyyənləşdirildikdən və sənədləşdirildikdən sonra, gözlənilən kəskinlik dərəcəsinə, baş vermə ehtimalına və hər hansı qanunvericiliyin və ya kreditorların tələblərinə uyğun olan əlaqədar nəzarət tədbirləri hazırlanacaq. Risklərin və təsirlərinin müəyyənləşdirilməsinin əsas etibarilə ƏMTQ/ƏMSSTQ-də müəyyənləşdirilmiş elementlərlə uyğunlaşdırılacağı gözlənilir, lakin MST Podratçısının /İTX Şirkətinin xüsusi iş metodlarından asılı olaraq fərqlənə bilər.

## 7.1 Müqavilə öhdəlikləri

Layihənin əsas təchizatçıları işçilər üçün təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsi və milli insan hüquqları və əmək qanunlarına riayət edilməsi (uşaq və məcburi əməyin qadağan edilməsi daxil olmaqla) üzrə müqavilə öhdəliklərini təmin etməlidir.

## 7.2 Ekoloji və Sosial İdarəetmə Planları (TESİP və İƏESİP)

Əsas EvəS idarəetmə planları tikinti və istismar fazalarına müvafiq olaraq TESİP və İƏESİP olacaq.

TESİP və İƏESİP ayrıca bir sənəddən ibarət olacaq və onun tərkibində ekoloji və sosial risklərin, təsirlərin, imkanların və tələblərə uyğunluğun necə idarə ediləcəyi və monitorinq olunacağı təfərrüatı ilə əks etdiriləcək. Bu, müvafiq qaydada MST Podratçısı və İTX Şirkəti tərəfindən hazırlanacaq “yüksək səviyyəli idarəetmə planı” sənədi olacaq.

TESİP/İƏESİP-in tipik məzmunu aşağıda ümumi şəkildə təsvir edilib. Onun tərkibinin bu strukturda olması məcburi xarakter daşımır, lakin ən azı oradakı başlıqların və yarımbaşlıqların müvafiq TESPİK/İƏESİP sənədlərində əhatə olunması gözlənilir.

- GİRİŞ
  - Ekoloji icazəyə dair ümumi məlumat
  - TESİP/İƏESİP-in məqsədləri
  - TESİP/İƏESİP-in əhatə dairəsi
  - Məhdudiyyətlər
  - TESİP/İƏESİP-in strukturu
- LAYİHƏNİN TƏSVİRİ
  - Layihənin əsaslandırılması və ümumi məlumat
  - Layihənin yeri
  - Torpaqdan istifadə və Potensial həssas reseptorlar
    - Torpaq üzərində mülkiyyət hüququ
    - Torpaqdan istifadə

- Həssas reseptorlar
- Layihə komponentlərinin icmalı
- Əlaqədar qurğuların icmalı
- Tikinti/istismar işləri və işçi qüvvəsi üzrə tələblərin icmalı
- Tikinti/istismar qurğularının icmalı
- Layihənin qrafiki (TESİP üçün)

• NORMATİV-HÜQUQİ BAZA

- Normativ-hüquqi baza və tələblərə uyğunluq üzrə öhdəliklər barədə icmal
    - Regional və beynəlxalq müqavilələr və konvensiyalar (layihənin həyata keçirildiyi ölkənin tərəf olduğu)
    - Federal qanunvericilik
    - Kreditorların tələbləri
    - Ekoloji standartlar

• EKOLOJİ VƏ SOSİAL İDARƏETMƏ

- Ekoloji və Sosial İdarəetmə Sisteminə (ESİS) dair xülasə
- EvəS Siyasətlərinə istinad
    - Müvafiq MST Podratçısının/İTX Şirkətinin Korporativ EvəS Siyasətləri
    - Layihə Şirkətinin EvəS Siyasəti səviyyəsi
- Digər dəstəkləyici/əlavə planlar və prosedurlar barədə məlumat
- Təşkilati struktur
    - Layihənin həyata keçirildiyi ölkənin tənzimləyici orqanı
    - Kreditorlar
    - Layihə Şirkəti
    - MST Podratçısı/İTX Şirkəti
    - Subpodratçılar
- SƏTƏM üzrə vəzifələr və cavabdehliklər
- Ətraf mühit üzrə məlumatlılıq və təlimlər
    - Ətraf mühit və sosial sahə barədə giriş təlimi
    - İşöncəsi qısa təlimatlandırma – Ətraf mühit və sosial sahə üzrə təlim sessiyaları
    - TESİP/İƏESİP üzrə təlim
- Səriştə ehtiyacları və qeydləri
- Daxili və xarici yazışmalar/məlumatlandırmalar
    - Daxili yazışma/məlumatlandırma
    - Xarici yazışma/məlumatlandırma
    - Tənzimləyici orqan ilə əlaqə saxlanılması
- Təftişlər və auditlər
    - Gündəlik və həftəlik təftişlər
    - Daxili auditlər
    - İllik daxili auditlər
    - Xarici auditlər

- Uyğunsuzluq, düzəlişlər və düzəldici tədbirlər
    - Uyğunsuzluq, araşdırma və cavab tədbiri
    - Hadisələrin müəyyənləşdirilməsi, bildirilməsi, təhqiqatı və cavab tədbirlərinin görülməsi
    - Düzəlişlər və düzəldici tədbirlər
- Qeydlərə/sənədlərə nəzarət

- TƏSİRAZALTMA, İDARƏETMƏ VƏ MONİTORİNQ TƏDBİRLƏRİ *

- Ərazinin ekologiyası
- Havanın keyfiyyəti
- Səs-küy və vibrasiya
- Torpaq, geologiya və qrunt suyu və yerüstü sular
- Nəqliyyat və daşımalar
- İnfrastruktur və köməkçi avadanlıqlar
- Arxeoloji və Mədəni İrs
- Landşaft və estetik görünüş
- Kölgə titrəməsi
- Sosial-iqtisadi göstəricilər
- Bərk tullantuların və çirkab sularının idarə oluması
- Dolanışığın Bərpası Planı
- İcmanın sağlamlığı, təhlükəsizliyi və mühafizəsi
- İşçi qüvvəsi və iş şəraiti
- İnsan haqlarına təsirin qiymətləndirilməsi
- İqlim ilə əlaqədar məsələlər

- MONİTORİNQƏ PROQRAMINA DAİR XÜLASƏ
- FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVAB TƏDBİRLƏRİ BARƏDƏ İCMAL
- ƏLAVƏLƏR

## 7.3 Dəstəkləyici/əlavə planlar və prosedurlar

Layihənin gözlənilən təsirlərinə uyğun olaraq (ƏMSSTQ-nin 2-ci hissəsi), aşağıdakı cədvəldə ən azı TESİP və/və ya İƏESİP ilə əlaqələndiriləcəyi gözlənilən planların və prosedurların siyahısı təqdim edilir. Buraya hər bir plana daxil ediləcək bəzi əsas tələblər daxildir.

**Cədvəl 7-1 ESİS üzrə əlavə idarəetmə planları və prosedurları**

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| **Tullantıların İdarə Olunması Planı** | Tikinti, istismara verme və istismar | Tullantılar və çirkab suların təmizlənməsi, tullantıların lokallaşdırılması (çeşidləmə, saxlama sahəsinin spesifikasiyaları və yerləri), toplama metodologiyaları və daşınma (lisenziyalı podratçıların və onların cəlb edilməsi prosesinin müəyyənləşdirilməsi), təmizləmə/kənarlaşdırılması (lisenziyalı |

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| | | təmizləmə və kənarlaşdırılma sahələrinin müəyyənləşdirilməsi), tullantılar və çirkab suları ilə bağlı uçotun aparılması və hesabatların verilməsi üçün sahəyə səciyyəvi olan tələbləri müəyyənləşdirmək. Torpağın və qrunt suyunun çirklənməsi hallarını məhdudlaşdıracaq tədbirləri daxil etmək. |
| **Peşə Sağlamlığının və Əməyin Təhlükəsizliyinin İdarə Olunması Planı** | Tikinti, istismara vermə və istismar | Tikinti, istismara vermə və istismar fazalarında işçilərin sağlamlığı və təhlükəsizliyi üçün tələb olunan nəzarət tədbirlərini müəyyənləşdirmək. Minimum bu plana aşağıdakılar daxil olacaq:<br>• İşçilər üçün potensial təhlükələrin səbəbinin müəyyən edilməsi və mümkün qədər minimuma endirilməsi üzrə vasitələr.<br>• Təhlükəli şəraitin və ya maddələrin dəyişdirilməsi, əvəzlənməsi və ya aradan qaldırılması da daxil olmaqla, qabaqlayıcı və qoruyucu tədbirlərin təmin edilməsi.<br>• Riskləri minimuma endirmək üçün müvafiq avadanlığın verilməsi və onun istifadəsinin tələb olunması və təmin edilməsi.<br>• İşçilərə sağlamlıq və təhlükəsizlik prosedurlarına riayət etməsi və qoruyucu vasitələrdən istifadə etməsi üçün onlara təlimlər verilməsi və müvafiq stimullaşdırıcı amillərin təmin edilməsi.<br>• İstehsalatda qəzalar, peşə xəstəlikləri və bədbəxt hadisələrin sənədləşdirilməsi və hesabatla məruzə edilməsi.<br>• Fövqəladə hallara qarşı qabaqlayıcı tədbirlər, hazırlıq və cavab tədbirləri. |
| **Eroziyaya və Çöküntüyə Nəzarət Planı** | Tikinti və istismara vermə | Sahənin təmizlənməsindən qabaq çöküntü axıntılarının və daşqının qarşısını almaq məqsədi ilə idarəetməyə nəzarəti təmin etmək üçün MST-də Eroziyaya və Çöküntüyə Nəzarət Planı nəzərdə tutulacaqdır. |
| **Fövqəladə Hallara Qarşı Hazırlıq və Cavab Tədbirləri Planı** | Tikinti, istismara vermə və istismar | Tikinti, istismara vermə və istismar fazaları ilə əlaqədar müxtəlif potensial fövqəladə hallar üzrə nəzərdə tutulan gözlənilməz halları müəyyən etmək. Planlarda cavab mexanizmləri, vəzifə və cavabdehliklər, təlim tələbləri, daxili əlaqə/məlumatlandırma, avadanlıq və xarici maraqlı tərəflərlə müvafiq qarşılıqlı əlaqə göstərilməlidir. Sahədəki avadanlıqlara olan tələblər, potensial fövqəladə risklərə əsaslanaraq (sahə işçilərinə bu cür avadanlığın istismarına öyrədilməsi üçün müddəalar daxil olmaqla) müəyyənləşdirilməlidir. Bu plana təsadüfi/qəza nəticəsində sızma və dağılma hallarının baş verməsi ehtimalına qarşı dağılma əleyhinə cavab tədbirləri və fövqəladə tədbirlər daxil edilməlidir. |
| **Ekoloji və Sosial Monitorinq Planı** | Tikinti, istismara vermə və istismar | Milli ekoloji standartlara və kreditorların tələblərinə uyğunluğu nümayiş etdirmək üçün monitorinq tələb olunur. Monitorinq planında bütün ƏMSSTQ parametrləri (ən azı ƏMSSTQ-nin 2-ci hissəsində müəyyənləşdirilmiş) üzrə monitorinq tələbləri müəyyənləşdirilməlidir. Buna görə də, plana aşağıdakılar daxil olmalıdır:<br>• Hansı parametrlər monitorinq edilməli, ölçülməlidir və hansı yerlərdə bu aparılmalıdır.<br>• Nəticələrin etibarlılığını təmin etmək üçün monitorinq ölçməsi, təhlil və qiymətləndirmə üzrə metodlar.<br>• Tələblərə uyğunluğun və icra göstəricisinin ölçülməsi zamanı əsas götürülməli meyarlar.<br>• Monitorinq nə zaman və hansı tezliklə aparılmalıdır. |

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| | | Monitorinq və ölçmələrin nəticələri necə təhlil edilməli və qiymətləndirilməlidir (müstəqil tərəf və ya şirkət daxilində). |
| **Biomüxtəliflik üzrə Tədbirlər Planı (BTP) / Növlər üzrə Tədbirlər Planı** | Tikinti, istismar və istismardan çıxarma | BTP-yə daxil olmalıdır: Aşağıdakılar daxil olmaqla Biomüxtəliflik üzrə Tədbirlər Planının hazırlanması:<br>• Növlər üzrə Tədbir Planları, hər bir qayğı tələb edən növ (məsələn çöl qartalı, ceyran və s.) üçün fərdi yanaşma<br>• Floranın Mühafizəsi üzrə Tədbirlər Planı<br>• Sürünənlərin Köçürülməsi Planı;<br>• Yuvalayan Quşların Mühafizəsi Planı<br>Planların tələblərinə bütün əlaqədar təsirazaltma tədbirləri üzrə riayət edilməli metodologiyanın və monitorinqin təfərrüatları daxil olmalıdır. Bu planlar mühafizə əhəmiyyətli növlərin qorunması üçün tikinti, istismar və istismardan çıxarma fəaliyyətlərinə tətbiq olunacaq tələbləri aydın şəkildə göstərməklə hazırlanacaqdır. Planlara aşağıdakılar daxil olacaq:<br>• Mühafizə əhəmiyyətli növlər üzrə icmal<br>• Biomüxtəlifliyin qorunması ilə bağlı yerinə yetirilməli prosedurların və protokolların siyahısı<br>• Qadağa Zonalarının yaradılması<br>• Biomüxtəliflikla bağlı qadağan olunmuş fəaliyyətlər haqqında məlumatlılığı artırmaq üçün işçi heyəti üçün təlim.<br>• Monitorinq Proqramı<br>• Hesabatlılıq tələbləri |
| **Bərpa üzrə Tədbirlər Planı** | Tikinti sonrası | Planın məqsədi təbii arealların bərpası və oraya vəhşi təbiətin geri qaytarılması üçün açıq anbar sahələrinin və digər ərazilərin tikintidən sonrası bərpası üzrə metodologiya təmin etməkdir.<br>Tələblərə bərpa edilməli sahələr, habelə bərpa sonrası vəziyyətin tələb olunan monitorinqi daxil ediləcək (bu, İstismar Əməliyyatları üzrə BMQP-yə daxil olunacaq). |
| **Kompensasiyaedici Tədbirlər Planı** | Tikinti sonrası | Planın məqsədi yüksək əhəmiyyət dərəcəsində olduğu müəyyənləşdirilmiş bütün təsirlərə qarşı kompensasiyanı təfərrüatı ilə təsvir etməkdir (buraya tədqiqatın maliyyələşdirilməsi, təbii arealın bərpası, elektrik xətlərinin uyğunlaşdırılması və ƏMSSTQ-yə əsasən digər tədbirlər daxil ola bilər). |
| **Toqquşma Risklərinin İdarə Olunması planı** | İstismara hazırlıq və istismar | Turbinlə toqquşma hallarına qarşı adaptiv təsirazaltma tədbirləri. Buraya mövsümi olaraq müşahidəçinin təlimatı əsasında söndürülmə və radar əsaslı söndürülmə proqramları daxil olacaq. Bu planda yarasalar üçün turbinin işədüşmə sürətinin məhdudlaşdırılması proqramı təsvir ediləcəkdir. Akustik fəaliyyətə və tələfat halları barədə məlumatların toplanılması üçün üçillik monitorinq aparılmalı və lazım olduqda adaptiv idarəetmə tədbiri kimi turbinin işədüşmə sürətinin məhdudlaşdırılması həyata keçirilməlidir. |
| **Tikinti sonrası tələfat hallarının monitorinqi (TSTHM)** | İstismar | Tələfat halları ilə bağlı məlumatların toplanılması və zəruri hallarda adaptiv idarəetmənin təmin edilməsi üçün üçillik monitorinq aparılmalıdır.<br>Bu plan KTG-lər və hava elektrik veriliş xətləri boyunca quşların ölüm hallarının davamlı monitorinqi və idarə olunması üçün planı müəyyən edəcək. Həmin plana ən azı aşağıkılar daxil olacaq:<br>• HEVX dəhlizi boyunca quşların tələfatının monitorinqi üçün metodologiya;<br>• Adaptiv idarəetmə və/və ya kompensasiya tədbirlərinə təkan verəcək müşahidələrin/ölüm hallarının sayı üçün hədlər. |

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| | | • Monitorinq proqramı<br>• Hesabatlılıq tələbləri. |
| **Yüklərin Daşınması Planı** | Tikinti | Layihə ilə bağlı komponentlər daşınmazdan əvvəl Yüklərin Daşınması Planı yerinə yetiriləcək. Plan limandakı pik və qeyri-pik iş saatları nəzərə alınmaqla, daşımaların iş günləri arasında düzgün bölüşdürülməsini təmin etmək üçün yük daşımalarının sayını, növlərini və qrafikini nəzərə almalıdır. |
| **Ümumi Nəqliyyatı İdarəetmə Planı** | Tikinti | Nəqliyyat marşrutunun tərkib hissəsi kimi ümumi təyinatlı yollarda sıxlaşmanın və nəqliyyatın tıxanmasının qarşısının alınması üçün ümumi Nəqliyyatı İdarəetmə Planı işlənib hazırlanacaq və layihələrin (Sahə 1, Xızı 3 və HEVX) arasında əlaqələndirmə təmin olunacaqdır. Bu fəaliyyət müvafiq orqanlar ilə koordinasiya əsasında həyata keçiriləcəkdir |
| **Nəqliyyatın Hərəkətinin İdarə Olunması Planı** | Tikinti, istismara vermə və istismar | Planda çatdırmaların vaxtları, xüsusi marşrutlar (fasilələri minimuma endirmək üçün), xarici nəqliyyat orqanları ilə (MTQƏP-ə uyğun olaraq, məsələn, yerli hökumət orqanı ilə) qarşılıqlı əlaqə mexanizmləri daxil olmaqla, ağır və ya böyük yüklər üçün hər hansı xüsusi tələblər müəyyənləşdiriləcək. Tıxacları, yanacaq istehlakını, ictimaiyyət və sahə işçiləri üçün riskləri minimuma endirmək üçün tədbirlər daxil edilməlidir.<br>Çatdırılmalar Nəqliyyatın Hərəkətinin İdarə Olunması Planına əsasən tənzimlənəcək. |
| **İnsan Resursları üzrə Siyasət (və əlaqədar prosedurlar)** | Tikinti, istismara vermə və istismar | İnsan resursları üzrə siyasətlər və prosedurlar istismar və texniki xidmət tələbləri üçün tələb olunan işçi qüvvəsinin sayına müvafiq qaydada uyğunlaşdırılacaq. Milli qanunvericiliyin tələblərinə və kreditorların tələblərinə uyğunluğu nümayiş etdirmək üçün siyasətlər və prosedurlar hazırlanmalıdır. İşə qəbul zamanı bütün işçilərin minimum qanuni məşğulluq yaşından yuxarı olmasını təmin edən prosedur. Bura rəsmi şəxsi qeydiyyat sənədlərinin (yəni şəxsiyyət vəsiqəsi, pasport və s.) daxil olacaq.<br><br>İR siyasəti və prosedurları Layihə üçün tələb olunan işçi qüvvəsinin miqyasına müvafiq qaydada uyğunlaşdırılacaq. Siyasət və prosedurlar milli qanunvericiliyə və BMK İS 2-yə uyğunluğu nümayiş etdirmək üçün hazırlanmalı və GƏZQ/CİZ/CQ və işçilərin yerli icmalarla əlaqəsi üzrə davranış kodeksini əhatə etməlidir.<br>BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə uyğun insan hüquqları siyasəti. |
| **GƏZQ Siyasəti** | Tikinti, istismara vermə və istismar | Kreditorların və Azərbaycan Respublikasının (o cümlədən ACWA Power şirkətinin Ekoloji və Sosial İdarəetmə Sisteminin icra təlimatının) tələblərinə uyğun olaraq, işçilər arasında qəbuledilməz davranışların siyahısını, hesabatlılıq müddəalarını, günahkarlara qarşı sanksiyaları və qurbanlar üçün mövcud resurslar və dəstək sistemlərini əks etdirən layihə üzrə xüsusi GƏZQ siyasəti hazırlanacaq və həyata keçiriləcək. |
| **Şikayətlərə Baxılması Mexanizmi** | Tikinti, istismara vermə və istismar | MTQƏP-ə daxil etmək və ya onunla əlaqələndirmək.<br>Xarici tərəflər və bütün sahədəki işçilər üçün proseduru müəyyənləşdirmək və beləliklə onların layihə çərçivəsindəki məşğulluğunun hər hansı aspekti üzrə (gender əsaslı zorakılıq/qısnama və cinsi istismar halları ilə bağlı məsələlər daxil olmaqla) hər hansı məsələləri qaldırmalarına, narahatlıqlarını ifadə etmələrinə və təkmilləşdirmə imkanlarını bildirmələrinə imkan yaratmaq.<br>Bu mexanizm asanlıqla əlçatan olmalı (o cümlədən hər hansı həssas qruplar üçün), ayrı-seçkiliyə yol verməməli və narahatlıq |

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| | | doğuran məsələləri və ya şikayətləri bildirmək üçün (anonim şəkildə bildirmək imkanı da olmaqla) şəffaf proses təmin etməlidir. Bu mexanizmdə daxili heyətin şikayətlərə baxılması mexanizmi ilə bağlı vəzifələri və cavabdehlikləri müəyyənləşdirilməlidir və daxil olan şikayətlərin cavablandırılmasına dair prosedur (o cümlədən cavab tədbiri üçün vaxt çərçivəsi, qarşılıqlı əlaqə mexanizmləri və uçotun aparılması) müəyyən edilməlidir. |
| **Təhlükəsizlik Planı** | Tikinti və istismar | Təhlükəsizlik Planı əsaslı olaraq öncədən proqnozlaşdırıla bilən təhlükəsizlik risklərinin qiymətləndirilməsinə əsaslanmalıdır (Fövqəladə Hallara Qarşı Hazırlıq və Cavab Tədbirləri Planındakı təhlükəsizlik riskləri ilə əlaqələndirilmiş) və bu riskləri idarə etmək və ya onların qarşısını almaq məqsədilə effektiv təsirazaltma tədbirlərinin yerinə yetirilməsi üçün lazımi idarəetmə müddəalarına, kadr tələblərinə, avadanlıqlara, təlimlərə və müəyyənləşdirilmiş proseslərə uyğunlaşdırılmalıdır. Təhlükəsizlik planı "BMT-nin hüquq mühafizə orqanlarının əməkdaşları üçün Prinsipləri" çərçivəsində hüquq mühafizə orqanlarının tələb etdiyi lazımi davranış qaydalarına müvafiq uyğunluğu təmin etməlidir. |
| **Ekoloji və Sosial Təlim Planı** | Tikinti, istismara buraxılma və istismar | Təlim üçün xüsusi qrupun üzvləri, təlimin növü (yəni, sinif otağında keçirilən təlim, praktiki təlim, işöncəsi təlimatlandırma), necə/nə vaxt keçirilməsi təlimin keçirilmə tezliyi və nəzarət üçün sonrakı mərhələlərdə təlimin tələb olunub-olunmaması müəyyənləşdiriləcəkdir. Təlim sadalanan planların və prosedurların mətni və ya sahədə iş icra planlarının əsasında müəyyənləşdirilə bilən əsas risk fəaliyyətləri ilə əlaqələndirilməlidir. |
| **İşçilərin Yaşayış Planı** | Tikinti | MST podratçısının subodratçıları (BMK-nın və AYİB-in "İşçilər üçün Yaşayış Yeri: Proseslər və Standartlar – 2009" tələblərinə uyğun olaraq) yoxlamaların mexanizminin və korrektiv tədbirlərin daxil olacağı yaşayış planı işləyib hazırlamalıdır. Bu laihə ilə əlaqəli işçi heyətinin rifahını və lazım olan işçi heyətinin tələbləri ilə əlaqədar lazımi tədbirlər planını təmin edəcəkdir. |
| **İşçi Axınının İdarə Olunması Planı** | Tikinti | MST Podratçısı Layihə sahəsində işçilərin axını (gəlişi) ilə bağlı təsirlərin idarə olunması, azaldılması, monitorinqi və qiymətləndirilməsi üçün həyata keçiriləcək bir sıra konkret tədbirləri təmin etmək üçün İşçi Axınının İdarə Olunması Planını hazırlayacaq. |
| **Mədəni İrsin İdarə Olunması Planı** | Tikinti və istismar | Bu plana icra qrafiki və tələb olunan büdcə ilə yanaşı mədəni irsə hər hansı mənfi təsirləri azaltmaq və yumşaltmaq məqsədilə hazırkı ƏMSSTQ-yə əsaslanan təsirazaltma tədbirləri daxil edilməlidir. |
| **Təsadüfi Tapıntılar Proseduru** | Tikinti | Tikinti işlərinin aparıldığı sahədə potensial arxeoloji tapıntıların müəyyənləşdirilməsi və cavab tədbirlərinin görülməsi üçün prosesi müəyyənləşdirmək. Buraya həmin ərazidə işlərin dayandırılması, potensial artefaktın təcrid edilməsi və regional dövlət orqanları ilə əlaqə saxlanılmasına (MTQƏP-ə uyğun qaydada) dair proses daxil olacaq. |
| **Suyun İdarə Olunması Planı** | Tikinti və istismar | Aşağıdakıları əhatə etmək üçün Suyun İdarə Olunması Planı tətbiq edilməlidir:<br>• "Ağıllı" (smart) su idarəetmə sistemlərinin quraşdırılması (sensorlu ventillər, su sayğacları, sızmanı aşkarlayan sistemlər və s.);<br>• Suyun istehlakının monitorinqi;<br>• Ventillərin, santexnikanın, su çənlərinin və s. müntəzəm texniki xidmətinin aparılması; |

| Plan / Prosedur | Layihənin fazası | Məqsəd və əsas tələblər |
|---|---|---|
| | | • İşçilər arasında suyun mühafizəsinə dair məlumatlılığın artırılması. |
| **CİZ və CQ hallarının qarşısının alınması və cavab tədbirləri planı** | Tikinti və istismar | Bu plana CİZ/CQ risklərini əhatə edən lazımi protokollar və mexanizmlər və böyük inşaat işləri ilə bağlı investisiya layihələrinin maliyyələşdirilməsində CİZ/CQ hallarının baxılmasına dair Dünya Bankının qabaqcıl təcrübələr sənədinə uyğun olaraq meydana çıxa biləcək hər hansı ittihamlara baxılması üsulları daxil olur. |
| **İş şəraiti və əmək müqaviləsinin şərtlərinə dair prosedur** | Tikinti və istismar | MST podratçısı və İTX şirkəti iş şəraitinin və əmək müqaviləsinin şərtlərinin milli əmək, sosial təhlükəsizlik və peşə sağlamlığı və təhlükəsizlik qanunlarına uyğunluğunun ətraflı təsvir edildiyi planın işlənib hazırlanmasını təmin etməlidir.<br>MST podratçısı və İTX şirkəti işçilərin işə götürülməsindən qabaq aşağıdakı sənədlərin işlənib hazırlanmasını təmin edəcəkdir.<br>• Əmək müqavilələri və işəgötürmə siyasətləri;<br>• Bərabər imkanların yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə dair siyasət (analıq məzuniyyəti və GƏZQ ilə əlaqədar siyasətlər daxil olacaqdır); və<br>• Uşaq əməyi və məcburi əmək barədə siyasətlər / prosedurlar (işəgötürülmə haqlarını və işədüzəltmə tədbirlərini, həmçinin, sənədin (məsələn, pasportun) alıb saxlanılması məsələlərini əhatə edəcəkdir). |
| **Xərclərin Azaldılması Planı** | Tikinti və istismar | Əgər kollektiv ixtisarlar gözlənilərsə, müvafiq Layihə tərəfi milli qanuna və müvafiq sənaye qaydasına uyğun olaraq və ayrı-seçkiliyə yol verilməməsi və məsləhətləşmənin aparılması prinsiplərinin əsasında xərclərin azaldılmasının mənfi təsirlərinin yumşaldılması üçün plan işləyib hazırlayacaqdır. Milli qanunda daha ciddi müddəalara xələl gətirmədən, ixtisarların əlaqədar işçilərə mənfi təsirlərini azaltmaq məqsədi ilə xərclərin azaldılması planının birlikdə tədqiq edilə bilməsi üçün belə məsləhətləşmə əmək müqavilələrində dəyişikliklər barədə işçilərin nümayəndələrinə və müvafiq hallarda, dövlət orqanlarına əsaslı qaydada bildirişin təqdim edilməsindən ibarət olacaqdır. Məsləhətləşmələrin nəticəsi yekun Xərclərin Azaldılması Planında əksini tapacaqdır. |
| **Yaşayış Vasitələrinin (dolanışığın) Bərpası Prinsipləri** | Tikinti, istismara vermə və istismar | Məsləhətləşmələrin və maldarlar arasında keçirilən sorğunun nəticələri gözlənilir. |
| **İcma üzrə Tədbir Planı** | Tikinti və istismar | Xüsusilə, xəstəliklərin Layihə işçiləri ilə əlaqədar ola biləcəyi hallarda, COVID-19 pandemiyasına qarşı tədbirlərin planlaşdırılmasında, ona qarşı cavab tədbirlərinin görülməsində və nəticələrin aradan qaldırılmasında icmanın maraqlı tərəflərinə dəstək üçün sahədə görüləcək tədbirlər bu planda müəyyənləşdiriləcəkdir. |
| **İstismardan çıxarılma planı** | İstismardan çıxarılma | İstismardan çıxarılma planı istismardan çıxarılmadan 12 ay qabaq işlənib hazırlanacaq və buraya materialların təkrar istifadəsi, tullantıların resirkulyasiyası və utilizasiyası üçün ətraflı metodlar daxil ediləcəkdir. |
| **Ekoloji və Sosial Monitorinq Planı** | Tikinti, istismara vermə və istismar | Mill ekoloji standartlara və kreditorun tələblərinə uyğunluğun nümayiş etdirilməsi üçün monitrinqin aparılması tələb edilir. Monitoring planında ƏMSSTQ sənədinin bütün parametrləri üzrə monitorinq tələbləri müəyyən ediləcəkdir (ən azı ƏMSSTQ sənədinin 2-ci cildində müəyyənləşdirildiyi kimi). Buna görə, plana aşağıdakılar daxil edilməlidir:<br>• Hansı parametrlərin monitorinqi aparılmalı, hansı parametrləri ölçülməli və bu işlər harada görülməlidir. |

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| | | • Nəticələrin doğruluğuna əmin olmaq üçün ölçmənin, analizin və qiymətləndirmənin monitorinqinin aparılması metodları.<br>• Uyğunluq və icra göstəricilərinin ölçülməsi üçün əsas götürüləcək meyarlar.<br>• Monitorinqin vaxtı və aparılacağı tezlik.<br>• Monitorinqin və ölçmənin nəticələrinin analiz edilməsi və qiymətləndirilməsi qaydaları (müstəqil və ya daxili). |
| **Biomüxtəlifliyin Monitorinqi və Qiymətləndirmə si Proqramı (BMQP)** | Tikintiə hazırlıq, tikinti, istismara buraxılma və istismar | Ayrıca Biomüxtəlifliyin Monitorinqi və Qiymətləndrilməsi Proqramında (BMQP) biomüxtəlifliyin idarə olunması hədəfləri ilə əlaqədar monitorinq və müvafiq qiymətləndirmə tələbləri nəzərə alınacaqdır. |

## 7.3.1 Digər tövsiyə olunan planlar və prosedurlar

Yuxarıda qeyd edilmiş tələb olunan ƏMSSTQ planlarından və prosedurlarından əlavə, ESİS çərçivəsində aşağıdakı planların və prosedurların da hazırlanması və tətbiq edilməsi tövsiyə olunur.

**Cədvəl 7-2 Tövsiyə olunan planlar və prosedurlar**

| PLAN / PROSEDUR | LAYİHƏNİN FAZASI | MƏQSƏD VƏ ƏSAS TƏLƏBLƏR |
|---|---|---|
| **Təhlükəli Materialların Saxlanılması Planı** | Tikinti, istismara vermə və istismar | Təhlükəli materialların saxlanılması üçün yerləri, saxlama tələblərini (ətraf mühitin mühafizəsini və sağlamlığın qorunmasını və əməyin təhlükəsizliyini, çeşidləmə tələblərini və s. təmin etmək üçün bəndlərin və binaların/anbarların spesifikasiyaları) və ekoloji riski azaltmaq üçün tullantılarla rəftar tələblərini müəyyənləşdirməlidir. Bu planda nümunələrin təhlükəsiz təhvil-təslimi prosesinə uyğun uçotun aparılması, materialların təhlükəsizlik pasportuna (MTP) dair tələblər, vəzifə və cavabdehliklər təsvir edilməlidir. Kimyəvi maddələrin idarə olunması, təchizatı və ya sahədəki daşımalara nəzarəti həyata keçirən işçilər planda müəyyənləşdirilməli və bu planın müddəalarına dair təlimlər almalıdır (bütün təlimlər təlim planı ilə əlaqələndirilməlidir). |
| **İnsan Hüquqları barədə Siyasət** | Tikinti, istismara vermə və istismar | Bu siyasət:<br>• Şirkətin ən yüksək rəhbərliyi səviyyəsində təsdiqlənəcək;<br>• Müvafiq daxili və xarici ekspertlər tərəfindən məlumatla təmin ediləcək;<br>• Layihənin tikinti və istismar fazaları ilə birbaşa əlaqəli olan işçilərə, yerli icmalara, subpodratçılara və digər təchizatçılara münasibətdə MST Podratçısının və İTX Şirkətinin insan hüquqlarına dair gözləntilərini müəyyənləşdirəcək;<br>• İctimaiyyətə açıq olacaq və şirkət daxilində və müvafiq maraqlı tərəflərə bildiriləcək.<br>Tikinti və istismar fazalarındakı fəaliyyətlər boyunca həyata keçiriləcək digər siyasət və prosedurlarda əks olunacaq. |
| **Çirklənmənin Qarşısının Alınması və Cavab Tədbirləri Planı** | Tikinti, istismara vermə və istismar | Çirklənmənin qarşısının alınması üçün xüsusi tələbləri və çirklənmə ilə bağlı hadisələrin idarə olunması üsullarını müəyyənləşdirmək. Planda yüksək riskli sahələrin |

| Plan / Prosedur | Layihənin fazası | Məqsəd və əsas tələblər |
|---|---|---|
| | | müəyyənləşdirilməsini və dağılma əleyhinə vasitələrin yerlərini (və dağılma əleyhinə dəstin içərisindəki vasitələri) əhatə etmək.<br>Hadisə zamanı tələb olunan əlaqə məlumatlarını və təmizlənmə əməliyyatına yardım etmək üçün cəld cavab tədbirləri görə biləcək mövcud podratçıları müəyyənləşdirmək. Lazım gəldikdə, bu hər hansı xarici tərəflərlə əlaqələr üçün MTQƏP ilə əlaqələndirilməlidir.<br>Plan ilə bağlı təlimə ehtiyacı olan işçiləri müəyyənləşdirmək. Düzəldici və qabaqlayıcı tədbirlərin həyata keçirilməsini və yekunlaşdırılmasını təmin etmək üçün planda hər hansı hadisələrin ayrıca reyestrdə qeydə alınmasına dair müddəalar olmalıdır. |
| **Sahənin Təftiş və Audit Planı və Proseduru** | Tikinti və istismar | Təftişlərin (məsələn, gündəlik, həftəlik baxışlar) və auditlərin (o cümlədən daxili auditlər və müvafiq olduqda kreditorlar üçün xarici müstəqil auditlər) vaxtını və tezliyini müəyyənləşdirmək.<br>Azərbaycanda tələb olunan və layihənin kreditorları tərəfindən tələb olunan Ekoloji və Sosial Məsələlərin müvafiq qaydada əhatə olunmasını təmin etmək üçün bu cür təftişlərin və auditlərin metodologiyasını təfərrüatlı şəkildə təsvir etmək.<br>Daxili auditlər üçün prosedurda auditin əhatə dairəsi (sahə, açıq anbar əraziləri, yaşayış sahələri, subpodratçıların sahələri və s.), auditin meyarları (məsələn, TESİP, İƏESİP, ESİS), audit dəlilləri üçün seçim prosesi, hesabat format və auditorun səriştəsinə dair tələblər müəyyənləşdirilməlidir.<br>Prosedurda uyğunsuluğun, müşahidələrin və qabaqcıl təcrübələrin tərifi müəyyənləşdirilməlidir, habelə uyğunsuzluq hesabatlarının hazırlanması və izlənməsi üçün mexanizmlərin təfərrüatları (tədbirlərin görülməsi üçün müddətlər və düzəldici və/və ya qabaqlayıcı tədbirlərin icrası) göstərilməlidir.<br>Kreditorların xarici müstəqil auditləri ilə qarşılıqlı əlaqə prosesi də sadalanmalı və müvafiq olduqda MTQƏP ilə əlaqələndirilməlidir. |
| **Materialların İdarə Olunması və Saxlanılması Proseduru** | Tikinti, istismara vermə və istismar | Ətraf mühitə, sağlamlığa və əməyin təhlükəsizliyinə riskləri minimuma endirmək üçün materialların saxlanılması üçün yerlər, saxlama tələbləri və rəftar prosedurları müəyyənləşdirilməlidir. Müvafiq olduqda bu plan Təhlükəli materialların Saxlanılması Planı və SƏT Planı ilə əlaqələndirilməli və ya onları əhatə etməlidir. Materiallar ilə rəftara dair xüsusi metod şərhləri təfərrüatı ilə təsvir edilməli, habelə bu cür fəaliyyətlərə cəlb olunan işçilər üçün təlim tələbləri göstərilməlidir. |
| **Yanacağın və Kimyəvi Maddələrin Boşaldılması Proseduru** | Tikinti, istismara vermə və istismar | Yanacağın və kimyəvi maddələrin boşaldılması üçün yerlər, əlaqədar təlim tələbləri və əlaqədar çirklənmənin azaldılması/dağılmanın aradan qaldırılması avadanlıqları (bu avadanlıqlar sahədə yanacağın iri çənlərə və ya kimyəvi maddələrin saxlama sahələrinə boşaldılması zamanı mövcud olmalıdır) müəyyənləşdirilməlidir. Bu çirklənmənin qarşısının alınması planı ilə əlaqələndirilməli və ya onu özündə əhatə etməlidir. |
| **İnsan Resursları Siyasəti (və əlaqəli prosedurlar)** | Tikinti, istismara vermə və istismar | İnsan resursları ilə əlaqədar siyasətlər və prosedurlar istismar və texniki xidmət tələbləri əsasında tələb ediləcək işçi heyətinin sayına uyğunlaşdırılacaqdır. Milli qanunvericiliyin tələblərinə və reditorlarun tələblərinə uyğunluq nümayiş etdirilməsi üçün siyasətlər və prosedurlar hazırlanmalıdır |

# 8 Monitorinq

Layihənin qüvvədə olan müvafiq milli normalara/standartlara və tətbiq edilən kreditor tələblərinə uyğun olub-olmadığını qiymətləndirmək üçün tikinti, istismara vermə və istismar fazalarında Ekoloji Monitorinqin aparılması tələb olunur.

## 8.1 ƏMSSTQ-yə əsasən monitorinq tələbləri

Tikinti, istismara vermə və istismar fazaları üçün hazırlanacaq xüsusi Ekoloji və Sosial Monitorinq Planına ƏMSSTQ-nin 2-ci hissəsinin parametrlərə aid fəsillərində tövsiyə edilmiş tədbirlər daxil edilməli və oraya aşağıdakı təfərrüatları əlavə edilməlidir:

- Hansı parametrlər monitorinq edilməli və ölçülməlidir və bu, hansı yerlərdə aparılmalıdır;
- Təsdiqlənmiş laboratoriyalardan istifadə etməklə nəticələrin etibarlılığını (nümunələrin götürülməsi, daşınması və aşkarlama hədləri daxil olmaqla) təmin etmək üçün monitorinq ölçməsi, təhlil və qiymətləndirmə üzrə metodlar;
- Uyğunluğun və icra göstəricisinin ölçülməsində əsas götürüləcək meyarlar;
- Nə vaxta və hansı tezlikdə monitorinq aparılmalıdır;
- Monitorinqdən və ölçmələrdən əldə edilən nəticələr necə təhlil edilməli və qiymətləndirilməlidir (daxili və ya müstəqil).

Monitorinq rejiminin nəticələri aşağıdakıları təmin etməlidir:

- Monitorinqin və ölçmələrin vaxt qrafiki nəticələrin təhlili və qiymətləndirilməsinə olan ehtiyacla koordinasiya edilib;
- Monitorinqin və ölçmələrin nəticələri etibarlıdır, təkrarlana biləndir və onlar izlənilə biləndir;
- Təhlil və qiymətləndirmə etibarlıdır və təkrarlana biləndir və layihənin tendensiyalar barədə məlumat verməsinə imkan yaradır.

## 8.2 Monitorinq məlumatları

Monitorinqin nəticələri müvafiq standartlar, icazə tələbləri, tələb olunan son hədlər, daxil olan şikayətlər, audit nəticələri, TESİP və İƏESİP tələbləri üzrə müqayisə ediləcək. MST Podratçısı və ya İTX Şirkəti üçün Ekoloji və Sosial İdarəetmə qrupu aşağıdakılar da daxil olmaqla, monitorinq hədlərinin aşılması təsdiqləndikdə və ya mənfi təsirlər aşkar edildikdə riayət edilməli müvafiq tədbirləri müəyyənləşdirəcək:

- Normadan artıq göstərici aşkar edildikdə əlaqə/məlumatlandırma protokolu;
- Sonuncu aparılmış texniki xidmət və təftiş üzrə daxili yoxlama prosesi;
- Hər hansı potensial əlaqədar dəyişkənlikləri və ya nəticələrdəki tendensiyaları müəyyənləşdirmək üçün əvvəlki monitorinq göstəricilərinin nəzərdən keçirilməsi;
- Avadanlığın karantini və ya iş təcrübələrindəki dəyişiklik barədə tövsiyələr;

- Problemin təkrarlanmamasını təmin etmək üçün monitorinq tezliyinin nəzərdən keçirilməsi.

Ölçmələrin təkrarlanması monitorinqin mühüm bir hissəsidir, çünki o, zaman ərzində baş verən dəyişiklikləri aşkar edir və fəaliyyətin potensial müsbət və ya mənfi təsirləri barədə xəbərdarlıq edir. Mənfi təsirlər təsirazaltma tədbirlərinin nəzərdən keçirilməsinə və təsirin mümkün mənbəyinin müəyyənləşdirilməsinə səbəb olmalıdır. Heç bir təsir aşkar edilmədikdə, bu, onu göstərə bilər ki, təsir mövcud deyil, təsirazaltma tədbirləri uğurlu olub və ya monitorinqin daha uzun müddətə davam etdirilməsinə ehtiyac var.

Ümumi vəziyyətdəki tendensiyaları müəyyən etmək və həyata keçirilən təsirazaltma tədbirlərinin müvəffəqiyyətinə dair rəy bildirmək üçün monitorinqdən əldə edilmiş məlumatlar ilkin və əvvəlki bütün monitorinq səyləri ilə müqayisə edilməlidir.

# 9 Təşkilati potensial

## 9.1 Vəzifələr və cavabdehliklər

ESİS təcrübədə effektiv icranın təmin edilməsi üçün səriştəli işçilər tələb edəcək.

### 9.1.1 Layihə Şirkəti (Məsul Tərəf)

Layihə Şirkəti ekoloji və sosial idarəetməyə, Layihə Şirkətinin əlaqədar siyasətlərinin icrasına və onlara riayət edilməsinə ümumi cavabdehlik daşıyacaq heyət üzvü təyin edəcək.

Layihə Şirkəti tikinti fəaliyyətləri ilə paralel şəkildə Layihə sahəsinin yaxınlığında heyvanların otarılması üçün çobanların alternativ sahələrə girişinə imkan yaratmaq məqsədilə yerli səlahiyyətli qurumlar ilə koordinasiya həyata keçiriləcək. Layihə Şirkəti Layihə sahəsindən qeyri-rəsmi surətdə istifadə edən və Layihənin həyata keçirilməsi nəticəsində təsirə məruz qalan (o şərtlə ki, onlar Layihə sahəsindən istifadə etdiklərini təsdiqləyə bilsinlər) çobanlara dəstək olmaq və onları kompensasiya etmək üçün fondun yaradılmasını təmin edəcək.

Bu, Layihə Şirkəti səviyyəsində tələb olunur, belə ki, layihə şirkəti yekun icazə sahibi və Layihə üzrə maliyyə vəsaitini alan tərəfdir.

### 9.1.2 MST Podratçısı / İTX Şirkəti (Cavabdeh Tərəf)

Gözlənilir ki, Layihə Şirkəti müvafiq layihə fazaları üzrə MST Podratçısına / İTX Şirkətinə ekoloji və sosial idarəetmə və uyğunluq üzrə cavabdehlikləri müqavilə çərçivəsində bölüşdürəcək.

Buna görə də, gözlənilir ki, MST Podratçısı və İTX Şirkəti ESİS-in tətbiqi üçün Layihə heyətinə bir sıra vəzifələr və cavabdehliklər müəyyənləşdirəcək (aşağıda tövsiyə edilmiş qaydada).

#### 9.1.2.1. İdarəetmə (rəhbər) Qrupu

Layihə üzrə ESİS sistemini effektiv şəkildə tətbiq etmək məqsədilə İdarəetmə Qrupu aşağıdakıları təmin etməlidir:

- Layihə Şirkətinin EvəS Siyasətinin və hazırlanmış daxili ESİS-in tətbiqini tam dəstəkləmək;
- Layihə Şirkətinin EvS Siyasətinin subpodrat müqavilələrinin tərkibinə daxil edilməsini/həmin müqavilələrdə buna istinad olunmasını təmin etmək;
- Öz timsalında örnək olmaqla və liderlik nümayiş etdirməklə müsbət ekoloji və sosial mədəniyyəti və qabaqcıl təcrübələri təşviq etmək;
- MST Podratçısının / İTX Şirkətinin ekoloji və sosial idarəetmə büdcələrini, resurslarını və kadrlarını yoxlamaq və təsdiqləmək;

- ESİS-in idarə edilməsi üçün resursların (insan və maliyyə) praktikada müvafiq qaydada bölüşdürülməsini təmin etmək;
- Müntəzəm qaydada sahəyə baxışlar keçirmək (EvəS elementlərinə xüsusi diqqət ayırmaqla);
- Qrupun iclaslarında Ekoloji və Sosial idarəetmə barədə müzakirələri təşviq etmək;
- Ekoloji idarəetmə və icra göstəricilərini monitorinq etmək və hesabatla bildirmək.

### 9.1.2.2. Ekoloji və Sosial İdarəetməyə görə cavabdehlik

MST Podratçısı və İTX Şirkəti ESİS-in tətbiqinə və daha geniş ekoloji və sosial idarəetmə və uyğunluğa görə cavabdehliyi Layihə sahəsindəki tamştatlı heyət üzvünə(üzvlərinə) tapşırmalıdır.

Bu işçilər SƏTƏM meneceri və ya ətraf mühit və əməyin təhlükəsizliyi üzrə menecer, SƏTTƏM qrupunun üzvü və ya konkret bir ətraf mühit və əməyin təhlükəsizliyi üzrə məsul şəxs ola bilər. Bu vəzifənin adından asılı olmayaraq, bu şəxs ESİS-in həyata keçirilməsi üçün Layihə Şirkətindən aşağıdakı layihə üzrə əsas əlaqə saxlanılmalı şəxs olacaq və o, rəhbərliyə tabe olacaq, sonra isə Layihə Şirkətinə tabe olacaq.

Bu vəzifənin ətraf mühit və sosial sahə üzrə müvafiq cavabdehlikləri aşağıda sadalanır

**SƏTƏM / Ətraf mühit və sosial sahə üzrə menecer (və ya buna müvafiq vəzifə)**

- Layihə Şirkətinin EvəS Siyasətinin tətbiqini tam dəstəkləyir;
- MST Podratçısının / İTX Şirkətinin layihəyə spesifik ESİS sistemini hazırlayır, tətbiq edir və idarə edir;
- Layihə Şirkətinin SƏTƏM meneceri ilə müntəzəm olaraq EvəS idarəetmə ilə bağlı əlaqə saxlayır;
- Digər layihə tərəfləri (subpodratçılar və əsas təchizatçılar kimi) tərəfindən ekoloji və sosial idarəetmə proqramlarının yerinə yetirməsinə nəzarət edir və bu proqramların icrasını təmin edir;
- MST Podratçısının / İTX Şirkətinin işçilərini, ixtisaslaşmalarını, səriştəsini və ekoloji icra göstəricisini yoxlayır;
- Ekoloji və sosial tələblərə uyğunluğu (o cümlədən ESİS-in əhatə dairəsinə uyğun olaraq subpodratçılar və təchizatçılar üzrə də) təmin etmək üçün Layihəni monitorinq edir;
- Ekoloji və/ və ya sosial elementlərə aid məsələlər barəsində rəhbərliyə məsləhət verir;
- Ekoloji və sosial problemləri, hadisələri və uyğunsuzluqları araşdırır, düzəldici tədbirlər görür və bunlar barədə rəhbərliyə/müvafiq səlahiyyətli qurumlara məlumat verir;
- ESİS tərəfindən tələb olunan qaydada müvafiq ətraf mühit və sosial sahə üzrə qeydləri aparır (məsələn, hadisələr barədə qeydiyyat jurnalı, uyğunsuzluq hesabatları, düzəldici tədbirlərə dair hesabatlar, şikayətlərin qeydiyyatı jurnalı və s.);

- Monitorinq proqramlarının ixtisaslaşmış işçilər tərəfindən yerinə yetirilməsini təmin edir və nəzərdən keçirilməsi və davamlı təkmilləşməyə zəmin yaradılması üçün Layihənin nəticələrini rəhbərliyə məruzə edir;
- Sahədəki məlumat bülletenlərinin "cari" olmasını və ətraf mühit və sosial sahə barədə müvafiq məlumatlarla "yenilənmiş" olmasını təmin etmək üçün onları məlumat lövhələrində yerləşdirir və monitorinq edir;
- Bütün layihə işçiləri (o cümlədən subpodratçılar) üçün ətraf mühit və sosial sahə üzrə giriş təlimini, habelə işöncəsi qısa təlimatlandırma formasında keçirilən ətraf mühitə dair təlim sessiyalarını koordinasiya edir, planlaşdırır, tərtib edir və/və ya həyata keçirir;
- İşçi qüvvəsi arasında xəsarətin, xəstəliyin və ətraf mühitə təsirin qarşısının alınmasında ətraf mühit baxımından məsuliyyətli davranışı təşviq edən proqramlar və fəaliyyətlər təşkil edir;
- Ətraf mühit haqqında qanunvericiliyə və ya kreditorların tələblərinə uyğun olmayan hər hansı təhlükəli fəaliyyəti dayandırır və işin davam etdirilməsinə/başlamasına icazə verməzdən əvvəl bu cür iş metoduna və/və ya şəraitinə düzəliş edir;
- Ekoloji məsələlərlə bağlı hər hansı subpodratçı üçün əlaqə saxlanılmalı şəxs qismində çıxış edir;
- Hər bir subpodratçının ESİP-lərin tələblərindən xəbərdar olmasını, onlara cavab verməsini və bu tələbləri yerinə yetirməsini təmin edir;
- Subpodratçıların işçilərini, ixtisaslaşmalarını, səriştələrini və ekoloji icra göstəricilərini yoxlayır;
- Tələblərə uyğunluğu qiymətləndirmək və düzəldici və qabaqlayıcı tədbirlər görmək üçün müntəzəm olaraq ESİS üzrə daxili auditlər aparır – auditlər layihədəki bütün subpodratçıları əhatə etməlidir.

**SƏTƏM üzrə mühəndis və ya Ekoloji və Sosial sahə üzrə mühəndis**

- Layihə Şirkətinin EvəS Siyasətinin tətbiqini tam dəstəkləyir;
- MST Podratçısının / İTX Şirkətinin layihəyə spesifik ESİS sistemini tətbiq edir və onun idarə olunmasına yardım edir;
- MST Podratçısının/İTX Şirkətinin SƏTƏM/Ətraf mühit və sosial sahə üzrə meneceri ilə müntəzəm olaraq Ekoloji və Sosial idarəetmə ilə bağlı əməkdaşlıq edir və əlaqə saxlayır;
- Digər layihə tərəfləri (subpodratçılar və əsas təchizatçılar kimi) tərəfindən ekoloji və sosial idarəetmə proqramlarının layihənin tələblərinə uyğun şəkildə yerinə yetirilməsini fəal surətdə təmin edir;
- Ekoloji və sosial tələblərə uyğunluğu (o cümlədən ESİS-in əhatə dairəsinə uyğun olaraq subpodratçılar və təchizatçılar üzrə də) təmin etmək üçün Layihəni monitorinq edir;
- Ekoloji və/ və ya sosial elementlərə aid məsələlər barəsində SƏTƏM/ Ətraf mühit və sosial sahə üzrə menecerə məsləhət verir;
- Ekoloji və sosial problemləri, hadisələri və uyğunsuzluqları fəal surətdə araşdırır, düzəldici tədbirlər görür;

- ESİS tərəfindən tələb olunan qaydada müvafiq ətraf mühit və sosial sahə üzrə qeydləri aparır (məsələn, hadisələr barədə qeydiyyat jurnalı, uyğunsuzluq hesabatları, düzəldici tədbirlərə dair hesabatlar, şikayətlərin qeydiyyatı jurnalı və s.);
- Monitorinq proqramlarının yerinə yetirilməsini və hesabatla məruzə olunmasını təmin edir;
- Sahədəki məlumat bülletenlərinin "cari" olmasını və ətraf mühit və sosial sahə barədə müvafiq məlumatlarla "yenilənmiş" olmasını təmin etmək üçün onları hazırlayır və monitorinq edir;
- Bütün layihə işçiləri (o cümlədən subpodratçılar) üçün ətraf mühit və sosial sahə üzrə giriş təlimini, habelə işöncəsi qısa təlimatlandırma formasında keçirilən ətraf mühitə dair təlim sessiyalarını (SƏTƏM/Ətraf mühit və sosial sahə üzrə menecer ilə yanaşı) koordinasiya edir, planlaşdırır, tərtib edir və/və ya həyata keçirir;
- İşçi qüvvəsi arasında xəsarətin, xəstəliyin və ətraf mühitə təsirin qarşısının alınmasında ətraf mühit baxımından məsuliyyətli davranışı təşviq edən proqramlar və fəaliyyətlər təşkil edir;
- Ətraf mühit haqqında qanunvericiliyə və ya kreditorların tələblərinə uyğun olmayan hər hansı təhlükəli fəaliyyəti dayandırır və işin davam etdirilməsinə/başlamasına icazə verməzdən əvvəl bu cür iş metoduna və/və ya şəraitinə düzəliş edir;
- Ekoloji məsələlərlə bağlı hər hansı subpodratçı üçün (SƏTƏM/Ətraf mühit və sosial sahə üzrə menecer ilə yanaşı) əlaqə saxlanılmalı şəxs qismində çıxış edir;
- Subpodratçının ESİP-lərin tələblərindən xəbərdar olmasını, onlara cavab verməsini və bu tələbləri yerinə yetirməsini təmin etmək üçün gündəlik monitorinq aparır;
- Subpodratçıların işçilərini, ixtisaslaşmalarını, səriştələrini və ekoloji icra göstəricilərini (SƏTƏM/Ətraf mühit və sosial sahə üzrə menecer ilə yanaşı) yoxlayır;
- Tələblərə uyğunluğu qiymətləndirmək və düzəldici və qabaqlayıcı tədbirlər görmək üçün müntəzəm olaraq ESİS üzrə daxili auditlər aparır (SƏTƏM/Ətraf mühit və sosial sahə üzrə menecer ilə yanaşı) – auditlər layihədəki bütün subpodratçıları əhatə etməlidir.

## 9.2 Ətraf mühit və sosial sahə üzrə məlumatlılıq və təlim

Layihənin işçi qüvvəsi ətraf mühitin mühafizəsi və əməyin təhlükəsizliyi ilə bağlı öz konkret vəzifələrindən xəbərdar olmadıqda ekoloji və sosial göstəricilərin icrası effektiv olmayacaq. Buna görə də, MST Podratçısı/İTX Şirkəti layihənin ESİS üzrə əlaqədar elementlərinə uyğun olaraq işçi qüvvəsinin müvafiq qaydada təlim keçməsini təmin etməlidir.

ESİS-in bir hissəsi kimi Təlim Proqramında/Matrisində iş elementlərinə müvafiq olan xüsusi təlim tələbləri hazırlanmalıdır və müəyyənləşdirilməlidir (məsələn tullantıların idarə olunması ilə bağlı olan işçilər üçün tullantıların idarə olunması planının müvafiq komponentləri üzrə təlim keçmək tələb olunmalıdır).

### 9.2.1 Təlim sessiyalarının növü

MST Podratçısı/İTX Şirkəti (və müvafiq olduqda, subpodratçılar) aşağıdakılar çərçivəsində ətraf mühit və sosial sahə üzrə təlimin müvafiq elementlərini həyata keçirəcək:

- Giriş təlimi
- Bütün işçi qüvvəsi üçün nəzərdə tutulmalıdır, ƏvəS Siyasəti və hazırlanmış ESİS ilə bağlı olan əsas ekoloji və sosial komponentləri (bütün işçilərə şamil olunan) əhatə etməlidir.
- İşöncəsi qısa təlimatlandırmalar
- Adi gündəlik fəaliyyətləri yerinə yetirərkən nəzərə alınmalı ekoloji və sosial amilləri işçilərə xatırlatmaq üçün müntəzəm qaydada ətraf mühit və sosial sahə barədə işöncəsi qısa təlimatlandırma formasında keçirilən təlim sessiyaları;
- ESİS və EvəS İdarəetmə planları barədə xüsusi təlim sessiyaları
- ESİS sistemini tətbiq etmək və ya reseptorlar üçün səciyyəvi EvəS riskləri və ya potensial təsirləri ola biləcək fəaliyyətləri yerinə yetirmək üçün işçilərin səriştəli olmasını təmin etmək məqsədilə keçirilir. Xüsusi vəzifələri olan və eləcə də təsirazaltma tədbirləri və monitorinq/audit öhdəlikləri yerinə yetirmək səlahiyyətinə malik olan bütün işçilər bu cür planlar/prosedurlar ilə bağlı təlim almalıdır.

### 9.2.2 Təlimin planlaşdırılması

Müəyyənləşdirilmiş təlim ehtiyaclarını qeydə almaq üçün MST Podratçısı/İTX Şirkəti hər bir işçinin vəzifəsi üçün tələb olunan təlimin növünü və tezliyini müəyyənləşdirmək üçün layihənin ətraf mühit üzrə təlim matrisini (daha geniş SƏTƏM təlimi çərçivəsində) hazırlayacaq və müntəzəm olaraq yeniləyəcək.

Təlim tələblərinin tezliyini müəyyənləşdirmək üçün həmçinin təlim planı/proqramı hazırlanacaq.

Bütün təlim materialı əvvəlcədən hazırlanacaq və sənədləşdiriləcək. Təlim materialı ingilis dilində və müvafiq yerli dillərdə və yaxud cəlb olunmuş işçi qüvvəsinə şamil edilən dillərdə hazırlanacaq. Lazım olduqda xüsusi sessiyalar üçün tərcüməçilər tələb oluna bilər.

### 9.2.3 Təlim sessiyalarının məzmunu

**Giriş təlimi**

Layihədəki giriş təlimləri zamanı layihənin bütün işçi qüvvəsi və ziyarətçiləri ətraf mühit və sosial sahə barədə auditoriyada giriş təlimi alacaqlar və həmin təlimə ən azı aşağıdakıların icmalı daxil olacaq:

- Layihə Şirkətinin EvəS Siyasəti;
- MST Podratçısının/İTX Şirkətinin ətraf mühit və sosial sahə üzrə menecerinin və ətraf mühit və sosial sahə üzrə mühəndisinin əlaqə məlumatları;
- EvəS riski/təsiri barədə əsas mövzular (buraya aşağıdakılar daxil ola bilər: tullantılar, təhlükəli materiallar, mühafizə olunan ekoloji ərazilər/həssas növlər/arxeoloji tapıntılar, yaxınlıqdakı reseptorlar və ya icmalar və həssas qruplar);

- Ekoloji hadisəyə qarşı cavab tədbirləri və daxili hesabatlılıq tələbləri, o cümlədən hadisə baş verdiyi təqdirdə əlaqə saxlanılmalı şəxs;
- Ehtiyatlı olma öhdəliyi (bütün işçilərin öz xidməti vəzifələrini Layihə Şirkətinin EvəS Siyasətinə və əlaqədar ESİS sisteminə uyğun yerinə yetirmək və hər hansı və bütün ekoloji hadisələr barədə məlumat vermək cavabdehliyi daşıdığını vurğulamaqla).

Giriş təlimatında aydın şəkildə bildirilməlidir ki, hər hansı vəhşi təbiətə və ya arxeoloji qalıqlara müdaxilə etmək qəti şəkildə qadağan edilir. Təlim sessiyasında həmçinin ekoloji və sosial məlumatlılığın saxlanılmasının əhəmiyyəti, ekoloji və sosial tələblərin ciddiliyi və tələblərə uyğunluğun işə götürülmə zamanı şərt olduğu vurğulanacaq.

**İşöncəsi qısa təlimatlandırma formasında keçirilən ətraf mühit və sosial sahə üzrə təlim sessiyaları**

Bu, tikinti/istismar əməliyyatı qrupları tərəfindən həyata keçirilən konkret fəaliyyətlər ilə bağlı risklərdən, təsirlərdən, imkanlardan və tələblərə uyğunluqdan asılı olaraq dəyişəcək və aşağıdakıları əhatə edə bilər (misal kimi təqdim edilir):

- Avtomobillərin, texnika və avadanlıqların sürücüləri/operatorları üçün havanın keyfiyyətinə təsir göstərən emissiyalara nəzarət tədbirləri;
- Ağır yük maşınlarının sürücüləri və toz qaldıran avadanlıqların operatorları üçün toza nəzarət və tozun təsirinin azaldılması metodları;
- Torpaq işləri görən avadanlıqların operatorları üçün eroziyaya və çökməyə qarşı nəzarət tədbirləri;
- Təhlükəli materiallarla rəftar, o cümlədən təhlükəli materialların yüklənib-boşaldılması, daşınması və saxlanılması, habelə avtomobillərin və texnikanın texniki xidməti və yanacaqdoldurma əməliyyatı;
- Yanacağın və digər təhlükəli materialların saxlanılması işlərinə cəlb edilən işçilər üçün dağılmalarına qarşısının alınması və dağılma əleyhinə cavab tədbirləri;
- Bütün tikinti işçiləri üçün təsirazaltma tədbirləri və ekoloji baxımdan əhəmiyyətli fauna;
- Avtomobillərin, texnika və avadanlıqların sürücüləri/operatorları üçün səs-küyə nəzarət və təsirazaltma tədbirləri;
- Nəqliyyat vasitələrinin sürücüləri (məsələn minik avtomobilləri, avtobuslar, ağır yük maşınları və s.) üçün nəqliyyatın hərəkətinin tənzimlənməsi və təsirazaltma metodları;
- Bütün tikinti işçiləri üçün tullantıların idarə olunması, kimyəvi maddələrin və təhlükəli materialların idarə olunması, o cümlədən daşınma və kənarlaşdırma;
- Bütün tikinti işçiləri üçün fövqəladə halların idarə olunması və hadisələrə qarşı cavab tədbirləri.

**ESİS və EvəS İdarəetmə Planları üzrə xüsusi təlim sessiyaları**

Konkret məzmunu və əsas nəzərə alınmalı məqamları əsas götürməklə işçilər üçün ESİS və ya xüsusi fəaliyyətlər və ya planlar/prosedurlar üzrə təlim sessiyaları xüsusi formada hazırlanmalı və keçirilməlidir.

### 9.2.4 Təlim üzrə qeydlər

Həyata keçirilən təlimdən əlavə, ətraf mühitə dair təlim qeydlərində ən azı aşağıdakılar müəyyənləşdiriləcək:

- Təlimin təsviri və məqsədi;
- Tarix və yer;
- Təlimçi və təlim iştirakçıları (davamiyyəti təsdiqləyən imzalarla);
- Təlimin sübutu kimi əlavə edilmiş fotoşəkillər və ya digər sənədlər.

Təlim keçən bütün işçilərə dair ümumi qeydlər aparılacaq və təlim cədvəli ilə tutuşdurulacaqdır.

# 10 Audit proqramı

Auditin aparılması hər hansı idarəetmə sisteminin ayrılmaz bir tələbidir və ESİS-in uğurlu icrasını təmin etmək üçün davamlı bir proses kimi nəzərə alınmalıdır.

## 10.1 Daxili auditlər

ESİS sistemi çərçivəsində auditlər və təftişlər üzrə tezliyi, metodları, cavabdehlikləri, planlaşdırma tələblərini və hesabatlılığı müəyyənləşdirən daxili audit proqramı hazırlanacaq, tətbiq ediləcək və qüvvədə saxlanılacaq.

Audit və təftiş proqramı qurularkən, təşkilat tikinti və istismar fazaları ilə bağlı ekoloji və sosial risklərin potensial tezliyini və əhəmiyyətini nəzərə almalı və auditin əhatə dairəsini və tezliyini müvafiq qaydada tənzimləməlidir.

Auditləri hazırlayarkən və həyata keçirərkən aşağıdakılar müəyyənləşdirilməlidir:

- Əhatə dairəsinin (iş həcminin), audit meyarlarının və hər bir auditin məqsədlərinin müəyyənləşdirilməsi;
- Audit prosesində və əlaqədar sahədə səriştəli olan audit heyətinin seçilməsi;
- Auditin nəticələrinin müvafiq yüksək rəhbərliyə məruzə olunmasının təmin edilməsi.

Auditlərin tikinti və istismara vermə mərhələsi ərzində rübdə bir dəfə, istismar fazası ərzində isə ildə bir dəfə həyata keçiriləcəkdir.

İstismar əməliyyatları zamanı tezlik ən azı ildə iki dəfə olmalıdır (müəyyən istismar fəaliyyətləri ilə əlaqəli risklərdən asılı olaraq) və audit meyarları da ESİS ilə əlaqəli ola biləcək hər hansı bir xarici sertifikasiyadan asılı olaraq dəyişə bilər.

## 10.2 "ACWA Power" şirkətinin korporativ auditləri

Gözlənilir ki, "ACWA Power" şirkətinin SƏTTƏM qrupu ən azı illik olaraq Layihənin idarəetmə sistemini audit edəcək.

## 10.3 Kreditorlarla bağlı monitorinq və hesabatların verilməsi

Kreditorlarla monitorinq tələbləri müəyyənləşdiriləcək və kreditorlara monitorinq hesabatları təqdim ediləcək və məruzə ediləcək. Bu hesabatlar çox güman ki, həm ESTP-nin tətbiqini (kredit öhdəliyi), həm də qurulmuş ESİS sisteminin praktikada uyğunluğunu və effektivliyini qiymətləndirmək üçün sahə səfərlərinə əsaslanacaq. Bu, adətən tikinti fazasında rüblük olaraq həyata keçirilir, lakin ESTP sənədində göstəriləcəkdir.

# 11 Uyğunsuzluq və Düzəldici tədbirlər

Auditlər, təftişlər və monitorinq fəaliyyətləri zamanı aşkar edilmiş bütün uyğunsuzluqlar qeydə alınacaq və uyğunsuzluq halı kimi nəzarətdə götürüləcək. Tədbirlərə dair dəqiq proseslər Layihə Şirkətinin ESİS-in tətbiqinə dair təlimat kitabçasında qeyd edilib və onlara riayət olunacaq.

Layihənin tələblərə uyğunluq öhdəliklərinin (məsələn hüquqi tələb və ya ESİS üzrə tələb) yerinə yetirilmədiyi və ya yerinə yetirildiyi təsdiqlənə bilmədiyi hallar uyğunsuzluq halları hesab edilir. Uyğunsuzluq hallarına dair nümunələrə aşağıdakılar daxildir, lakin bunlarla məhdudlaşmır:

- Ekoloji standartın pozulması;
- Təsdiqlənmiş risk qiymətləndirməsi və burada aşkar edilmiş ekoloji problemləri əhatə edən metod sənədi olmadan işlərin başlanması;
- Ətraf mühitə mənfi təsir göstərə biləcək tələblərdəki hər hansı əhəmiyyətli dəyişikliklərdən sonra risk qiymətləndirməsinin və metod sənədlərinin yoxlanılmaması;
- Tullantıların daşınması/kənarlaşdırılması üzrə xidmətlər göstərən, lakin müvafiq lisenziyaya malik olmayan təchizatçının təyin edilməsi;
- Risk qiymətləndirməsində və/və ya metod sənədində müəyyənləşdirilmiş tullantıların saxlanılması/kənarlaşdırılması üzrə tələblərə riayət edilməməsi;
- Kimyəvi maddələrin saxlanılması və/və ya idarə olunması tələblərinə riayət edilməməsi;
- Yanacaqların və ya kimyəvi maddələrin lokallaşdırıla bilməyən və ya nəzarət altına alına bilməyən dağılması halları;
- Risk qiymətləndirməsində və metod sənədində müəyyənləşdirilmiş iş həcmindən kənar olan işlərin yerinə yetirilməsi;
- Təmizlənməmiş, çirklənmiş çirkab suyun ətraf mühitə axıdılması.

Hazırlanmış hesabatlılıq prosesindən istifadə etməklə hər bir uyğunsuzluq və təhlükəli hal qeydə alınacaq. Bütün uyğunsuzluqlara və təhlükəli hallara aşağıdakı məlumatlar daxil olmalıdır:

- Uyğunsuzluğun yeri və təsviri və yerinə yetirilməmiş meyar/tələb;
- Nəzərdə tutulan düzəldici tədbir, o cümlədən bu tədbirin yerinə yetirilməsinə cavabdehlik daşıyan şəxs;
- Uyğunsuzluğun təkrar baş verməsinin qarşısını almaq üçün nəzərdətutulan qabaqlayıcı tədbir (əsas səbəbin təhlili);
- Hər hansı tələb olunan monitorinq və izləmə tədbirləri;
- Əsas icra göstəriciləri və düzəldici və qabaqlayıcı tədbirin uğurla tamamlanması üçün son tarix.

## 11.1 Düzəldici tədbir

Tələblərə cavab verməyən və ya digər qaydada ətraf mühit və ya sosial rifah üçün qaçılmaz bir risk yaradan hər hansı bir vəziyyət və ya şərait dərhal həll edilməlidir.

Gözlənilir ki, ayrı-ayrı uyğunsuzluq hallarına qarşı cavab tədbirləri görmək üçün düzəldici tədbirlər planı hazırlanacaq. Düzəldici tədbirlər planına əsas səbəblərin, nəzərdə tutulan tədbirlərin, vaxt çərçivələrinin, tələb olunan resursların və ESİS sənədinə lazım olan hər hansı dəyişikliklərin müəyyənləşdirilməsi daxil olmalıdır. Düzəldici tədbirlər planı ESİS-in idarə edilməsinə cavabdeh olan şəxs tərəfindən təsdiqlənməlidir.

Həmçinin görülmüş düzəldici tədbirlərin qeydiyyatı aparılmalıdır.

Əgər vəziyyət yaxud şərait dərhal düzəldilə bilmirsə, müvəqqəti tədbirlər (məsələn ətraf mühitin mühafizəsi üçün lazım olan tədbirlər) görüləcək.

# 12 Fövqəladə hallara qarşı hazırlıq və cavab tədbirləri

Risklərin idarə olunması effektiv şəkildə planlaşdırılmaqla və ESİS çərçivəsində müvafiq cavab tədbiri planları hazırlanmaqla EvəS hadisənin baş vermə ehtimalı minimuma endirilə bilər.

Bütün risk qiymətləndirmələrində və metod sənədlərində ekoloji hadisələrin baş vermə potensialı nəzərə alınmalıdır. Hadisəyə qarşı cavab tədbiri görmək üçün nəzərdə tutulan müvafiq avadanlıqlar sahədə müvafiq yerlərdə saxlanılmalıdır və Layihə heyəti isə bu cür avadanlıqlardan istifadə etmək və bu cür fövqəladə hallara qarşı cavab tədbiri görmək üçün müvafiq şəkildə təlim almalıdır.

Layihə çərçivəsində müvafiq xarici qurumlar (yəni, qəza/təcili yardım xidmətləri), təsirə məruz qalmış maraqlı tərəflər və dövlət orqanları (çirklənmə hadisəsi baş verərsə) ilə koordinasiya işlərinə dair tələbləri özündə ehtiva edən Fövqəladə Hallara Qarşı Hazırlıq və Cavab Tədbirləri Planı hazırlanacaq və yerinə yetiriləcək.

Bu planda əsaslı olaraq qabaqcadan proqnozlaşdırılan bilən fövqəladə hallar üçün prosedurlar müəyyənləşdiriləcək. “ACWA Power” Layihə Şirkətinin ESİS-in tətbiqinə dair təlimat kitabçasına əsasən, bu, Layihə sahəsində keçiriləcək təlim-məşqləri və xüsusi cəlb edilmiş işçilər üçün hər hansı müvafiq təlimləri özündə əhatə etmək üçün tələb olunur.

Fövqəladə Hallara Qarşı Hazırlıq və Cavab Tədbirləri Planını müəyyənləşdirərkən, aşağıdakılar nəzərə alınmalıdır:

- Fövqəladə hallara qarşı cavab tədbirlərinin görülməsi üçün ən müvafiq metod;
- Daxili və xarici əlaqə/məlumatlandırma (kommunikasiya) prosesi;
- Ətraf mühitə təsirlərin qarşısını almaq və ya bu təsirləri azaltmaq üçün tələb olunan tədbirlər;
- Fövqəladə halların müxtəlif növləri üçün görülməli təsirazaltma və cavab tədbirləri;
- Düzəldici və qabaqlayıcı tədbirləri müəyyənləşdirmək və yerinə yetirmək üçün fövqəladə haldan sonra qiymətləndirmənin aparılmasına zərurət;
- Planlaşdırılmış fövqəladə hallara qarşı cavab tədbirlərinin mütəmadi olaraq sınaq edilməsi;
- Fövqəladə hallara qarşı cavab tədbirləri üzrə təlim;
- Əsas işçi heyətinin və köməkçi qurumların siyahısı, o cümlədən əlaqə məlumatları (yanğınsöndürmə idarəsi, dağılmanın təmizlənməsi üzrə xidmətlər);
- Təxliyyə marşrutları və toplanma məntəqələri;
- Qonşu təşkilatlardan/layihələrdən qarşılıqlı yardıma ehtiyac duyulması ehtimalı.

## 12.1 Hadisələr

Hadisələrin araşdırılması və təhlili “ACWA Power” şirkətinin SƏTTƏM üzrə İdarə Sisteminə dair Çərçivə sənədində müəyyənləşdirilmiş 10-cu elementin müddəaları ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Beləliklə, bunun üçün hadisələrin bildirilməsi, cavab tədbirlərinin görülməsi, araşdırılması, təhlili, izlənilməsi və sənədləşdirilməsi üzrə dəqiq proseslər tələb olunur.

# 13 Maraqlı tərəflərlə qarşılıqlı əlaqə

Layihə çərçivəsində tikinti, istismara vermə və istismar fazalarında yerinə yetiriləcək Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) hazırlanıb. Bu, həmçinin istismar fazasından əvvəl yenilənməli və tətbiq edilməlidir. MTQƏP-də yerli icmanın dəqiq proseslə şikayətlər qaldıra bilməsinə imkan yaradan müvafiq şikayətlərə baxılması mexanizmi olur.

***Qeyd:** Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə ilə bağlı bütün proseslər üçün Layihənin xüsusi "Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planına" istinad edilməlidir.*

Maraqlı tərəflərlə qarşılıqlı əlaqə Layihə fəaliyyətlərində və qərar-vermə proseslərində maraqlı tərəfləri və onların narahatlıqlarını başa düşmək və cəlb etmək üçün görülən sistemli səylər kimi təsvir edilə bilər. Maraqlı tərəflər Layihəyə təsir göstərə bilən və ya Layihənin təsirinə məruz qala bilən hər hansı qrup və ya şəxs kimi müəyyənləşdirilir.

Maraqlı tərəflərlə qarşılıqlı əlaqə qurmaqda əsas məqsədlər aşağıdakılardır:

- Müvafiq maraqlı tərəfləri Layihə barədə məlumatlandırmaq;
- Müvafiq maraqlı tərəflərin layihə ilə bağlı fikirlərini və narahatlıqlarını öyrənmək;
- Layihənin həyata keçirildiyi icma daxilində layihəyə cavabdehliyi gücləndirmək;
- Maraqlı tərəflərin təsirin müəyyənləşdirilməsi və azaldılması prosesində iştirakı üçün zəmin yaratmaq.

Ətraf mühitə və sosial sahəyə təsirləri olan Layihələr üçün məsləhətləşmə prosesi təkcə müzakirədən ibarət deyil, həm də Layihənin təsirə məruz qalması ehtimal edilən və ya Layihədə maraqlı ola bilən tərəflər arasında Layihə haqqında anlayış yaratmaq və bu maraqlı tərəflərin Layihə və onun əlaqədar riskləri, təsirləri, imkanları və təsirazaltma tədbirləri barədə fikirlərini öyrənmək üçün bir sıra imkanlar yaradır. Maraqlı tərəflərin narahatlıqlarının və rəylərinin dinlənilməsi prosesi ekoloji və sosial risklərin (real və ehtimal edilən) müəyyənləşdirilməsinə yardım etmək və layihənin idarə olunmasını təkmilləşdirmək üçün dəyərli məlumat mənbəyi təmin edə bilər.

## 13.1 Şikayətlərə baxılması mexanizmi

### 13.1.1 İşçilərin şikayətləri

MTƏQP-yə işçilərin iş yerində narahatlıq doğuran məsələləri qaldırması üçün şikayətlər proseduru daxildir. Bu prosedura müvafiq idarəetmə səviyyəsi daxildir və bu prosedur çərçivəsində əlaqədar şəxslərə vaxtında rəy bildirmək imkanı verən (heç bir "qisas" almadan), başa düşülən və şəffaf bir prosesdən istifadə etməklə narahatlıq doğuran məsələlərə tez bir zamanda baxılır. Bu mexanizm şikayətlərin anonim şəkildə qaldırılmasına və baxılmasına imkan verir.

Şikayətlərə baxılması mexanizmi qanuna və ya mövcud arbitraj prosedurlarına uyğun olaraq mövcud ola biləcək digər məhkəmə və ya inzibati müdafiə vasitələrindən istifadə imkanına mane olmamalı və ya kollektiv müqavilələrdə nəzərdə tutulmuş şikayət mexanizmlərini əvəz etməməlidir.

Layihə üzrə giriş zamanı bütün təlimatı verilərkən bütün işçilər şikayətlərə baxılması proseduru haqqında məlumatlandırılmalıdır və bu prosedur asanlıqla əldə edilməli və əlçatan olmalıdır.

### 13.1.2 Üçüncü tərəfin şikayətləri

MTQƏP-ə həmçinin üçüncü tərəf maraqlı tərəflərdən (Layihənin təsirinə məruz qalan şəxslər və maraq əsaslı tərəflər) yazışmaların daxil olması və qeydiyyata alınması üçün metodları müəyyənləşdirən üçüncü tərəfin şikayətlərinə baxılması proseduru da daxildir. Buraya aşağıdakılar daxildir:

- Qaldırılmış məsələlərin nəzərdən keçirilməsi və qiymətləndirilməsi və onların necə həll ediləcəyinin müəyyənləşdirilməsi üçün metod;
- Cavabların təmin edilməsi, izlənilməsi və sənədləşdirilməsi (əgər varsa) üçün metod;
- Xarici şikayətlərə cavab olaraq, müvafiq olduqda ESİS üzrə idarəetmə proqramının tənzimlənməsi metodu.

Şikayətlərə baxılması prosedurunun layihənin risklərinə və mənfi təsirlərinə uyğun olmasını və hər hansı təsirə məruz qalan maraqlı tərəflərin nəzərə alınmasını təmin etmək üçün bu prosedur nəzərdən keçirilməli və yenilənməlidir (müvafiq olduqda).

Bu, mədəni baxımından məqbul və asanlıqla əldə edilə bilən, problemi və ya narahatlığı qaldırmış tərəfə qarşı heç bir qisas tədbirləri görülmədən, heç bir xərc yaratmadan, aydın və şəffaf bir məsləhətləşmə prosesindən istifadə etməklə narahatlıq doğuran məsələləri tez bir şəkildə həll etməyə çalışmalıdır. Bu mexanizm məhkəmə və ya inzibati müdafiə vasitələrindən istifadəyə mane olmamalıdır.

## 13.2 Layihə üzrə İctimai Məlumat Mərkəzi

İcma üzvlərinə Layihə barədə məlumat vermək, şikayətləri qəbul etmək və Layihə üçün yerli işəgötürmə prosesini asanlaşdırmaq məqsədilə 15 iyun 2021-c il tarixində “ACWA Power” şirkəti tərəfindən Sitalçay kəndində İctimai Məlumat Mərkəzi (İMM) yaradılmışdır. İMM-nin əsas funksiyaları qısa şəkildə aşağıdakı kimi təqdim oluna bilər:

- Yerli icmaya layihənin statusu və hər hansı yeni irəliləyişlər barədə məlumat vermək;
- İcma daxilində posterlər yerləşdirməklə layihə ilə bağlı elanları paylamaq;
- İctimaiyyətin şikayətlərini qəbul etmək və şikayətlərə baxmaq;
  - Şikayətləri qeydiyyata almaq və layihə rəhbərliyinə göndərmək;
  - Şikayətlər yekunlaşdırılanadək onları izləmək;
  - Şikayətlərin qeydiyyatını aparmaq;
- Layihə üçün yerli işəgötürmə prosesinə şərait yaratmaq;
  - İş elanları yerləşdirmək;
  - Layihə şirkətinin/podratçıların nümayəndələrini cəlb etməklə iş müsahibələri təşkil etmək;

- Müsahibələrin nəticələrini sənədləşdirmək və qeydiyyata almaq.

- Yerli səlahiyyətli qurumları və layihə rəhbərliyini cəlb etməklə ictimaiyyətlə görüşlər təşkil etmək;
- Layihəni işləyib hazırlayan tərəfin maliyyələşdirməsi üçün icmaların layihə ilə bağlı təkliflərini tərtib etmək; və
- İcmalarla bütün kommunikasiyanı/əlaqəni sənədləşdirmək və onların uçotunu aparmaq;

# 14 Əlaqə/kommunikasiya

ESİS çərçivəsində Layihənin ekoloji və sosial göstəricilərinə müvafiq olan daxili və xarici əlaqə (kommunikasiya) üçün lazım olan proseslər yaradılacaq, tətbiq ediləcək və qüvvədə saxlanılacaq.

Tikinti fazasına aid olan əlaqə xətləri (məlumatlandırma kanalları) TESİP daxilində aydın şəkildə müəyyənləşdiriləcək, istismar fazasına aid olan əlaqə xətləri (məlumatlandırma kanalları) isə İƏESİP çərçivəsində aydın şəkildə müəyyən ediləcək.

Əlaqədar proseslər aşağıdakıları müəyyənləşdirəcək:

- Nə bildiriləcək
- Nə vaxt bildiriləcək
- Kimin vasitəsilə bildiriləcək
- Məlumat necə ötürüləcək

ESİS-ə müvafiq olan kommunikasiya (əlaqə) proseslərini müəyyənləşdirərkən, aşağıdakılara xüsusi diqqət yetiriləcək:

- Tələblərə uyğunluq öhdəlikləri, o cümlədən ətraf mühit üzrə qanuni səlahiyyətli orqana hər hansı hesabatların verilməsi tələbləri
- Layihənin kreditorları tərəfindən tələb olunan hesabatların təqdim olunması üzrə tələblər.

# 15 Məlumatların idarə olunması və uçotun (qeydiyyatın) aparılması

ESİS-in tətbiqi nəticəsində məlumatlar formalaşacaq ki, bunların da idarə edilməsi tələb olunacaq. Qeydlərin müvafiq qaydada idarə edilməsi istənilən uğurlu ESİS sisteminin bir tələbidir və prosesin gedişini izləmək, effektivliyi yoxlamaq və tələblərə uyğunluğu nümayiş etdirmək üçün istifadə oluna bilər.

Tikinti, istismara vermə və istismar fazalarına müvafiq olan ESİS sisteminə aşağıdakılar da daxil olmaqla (lakin bunlarla məhdudlaşmayaraq) qeydlərin toplanılması daxil edilməlidir:

- Ətraf mühit və sosial sahə üzrə giriş təlimatlandırmasının və təlimin qeydləri;
- Səriştə/ixtisaslaşmalara barədə müvafiq qeydlər;
- Qəzaların araşdırılmasına dair hesabatlar;
- Şikayətlərin qeydiyyatı jurnalı;
- Daxili audit hesabatları (yekunlaşdırma daxil olmaqla);
- Uyğunsuzluq hesabatları;
- Hadisələr barədə hesabatlar;
- Ətraf mühit və sosial sahə üzrə təftiş və audit hesabatları (düzəldici tədbirlərə dair hesabatlar daxil olmaqla);
- Ekoloji və Sosial Monitorinqin nəticələri;
- Tullantıların daşınmasına dair qaimələr və təhlükəsiz təhvil-təslim prosesi;
- Ekoloji və sosial risk qiymətləndirmələri və metod şərhləri (sənədləri);
- Avadanlıqlar və sosial sahə üzrə təftişlər/sertifikatlaşmalar;
- Kreditorlar üçün müstəqil auditlərin hesabatları (düzəldici tədbirlərə dair hesabatlar daxil olmaqla);
- Fövqəladə hallar.

Bu cür qeydlər ESİS-in reyestrinə daxil edilməli və müvafiq olduqda yenilənməlidir.

# 16 BAXIŞ (YOXLAMA)

Layihənin ESİS sistemi "işlək" sənəd olacaq və layihədəki şəraitlərdə, fəaliyyətlərdə, ekoloji həssaslıqlarda və (müvafiq tənzimləyici orqanlar və Layihənin Kreditorları tərəfindən müəyyənləşdirilmiş) gələcək tələblərdə baş verə biləcək dəyişikliklərlə bağlı olaraq nəzərdən keçiriləcək və yenilənəcək.

ESİS sistemi tikinti, istismara vermə və ya istismar fəaliyyətlərindəki, yeni (tətbiq olunan) qaydalardakı hər hansı dəyişikliklərə uyğun olaraq və monitorinqin, auditlərin və təftişlərin nəticələrinə uyğun olaraq müntəzəm qaydada nəzərdən keçiriləcək.

ESİS-in müvafiqliyini, bütün potensial əhəmiyyətli mənfi təsirlərin müəyyən edilməsini və əlaqədar nəzarət tədbirlərinin Layihəyə müvafiq olmasını təmin etmək üçün mütəmadi tezliklə baxış keçiriləcək.